8 sentyabr 2023 №66 (2035) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri Qəzet 1991-ci ilin yanvarından çıxır

## Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalının proqramı zəngindir

Sentyabrın 18-dən 28-dək Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalı keçiriləcək.




2009-cu ildə əsası qoyulan festivalın bu il zəngin proqramı var. Festival çərçivəsində Bakıda, eləcə də Gəncə, Şəmkir və Şuşada açıq havada və müxtəlif məkanlarda konsertlər, tamaşalar, sərgilər, elmi konfrans, ustad dərsləri və digər tədbirlər nəzərdə tutulur.

Festivalın Milli Musiqi Gününə təsadüf edən ilk günü – sentyabrın 18-də Şuşa şəhərində açıq havada Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının təqdimatında "Leyli və Məcnun" operası nümayiş olunacaq. Bakıdakı Fəvvarələr meydanında isə Azərbaycan Dövlət Nəfəs Alətləri Orkestri bayram konserti təqdim edəcək.

Həmin gün axşam Heydər Əliyev Sarayında böyük bəstəkar Arif Məlikovun dünyanın bir sıra teatrlarının repertuarını bəzəyən "Məhəbbət əfsanəsi" baleti uzun fasilədən sonra yenidən öz vətənində nümayiş olunacaq.

Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalı bu il yeniyetmə və gənclər üçün xüsusi layihələrlə də yadda qalacaq. Azərbaycan Dövlət Uşaq Filarmoniyası və Bakı şəhərində fəaliyyət göstərən uşaq musiqi məktəblərinin şagirdlərindən ibarət 200 nəfərlik birləşmiş xalq çalğı alətləri orkestri Heydər Əliyev Mərkəzinin parkında çıxış edəcək, gənc istedadların iştirakı ilə bədii proqramlar təşkil olunacaq.

Festival günlərində Bakı şəhərindəki iri ticarət mərkəzlərində xüsusi ayrılmış yerlərdə məşhur müğənnilərin ifasında Üzeyir Hacıbəylinin vokal əsərləri karaoke formatında səslənəcək və arzu edən hər kəs bu formata qoşula biləcək.

ABŞ, Fransa, Gürcüstan, Xorvatiya, Rusiya, Sinqapur və digər ölkələrdən musiqiçi və kollektivlərin də qatılacağı festival günlərində M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyası, Azərbaycan Milli İncəsənət Muzeyi, Beynəlxalq Muğam Mərkəzi, Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və Orqan Musiqisi Zalı, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Opera studiyası və digər məkanlarda müxtəlif proqramlar təqdim olunacaq.

## Qədim İpək Yolu irsindən çağdaş mədəniyyət dialoquna

### Azərbaycan-Çin mədəni əlaqələrinin inkişafı üçün mühüm zəmin var

Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimlinin rəhbərliyi ilə geniş nümayəndə heyəti 3-9 sentyabr tarixlərində Çin Xalq Respublikasında səfərdədir.

Sentyabrın 6-da Azərbaycan nümayəndə heyəti Çinin Qansu vilayətinin Dunhuan şəhərində təşkil olunan 6-cı Beynəlxalq İpək Yolu Sərgisinin açılış mərasimində iştirak edib.

Nümayəndə heyəti əvvəlcə mədəni turizm sərgisi ilə tanış olub. Burada Çinin İpək Yolu boyunca yerləşən bölgələrinin tarixinə, mədəni irsinə, İpək Yolunun mədəni əlaqələrdəki roluna, "Bir kəmər, bir yol" ölkələrinin mədəni əməkdaşlığına dair eksponatlar, fotolar, rəsm əsərləri və kitablar nümayiş etdirilib.










Sərginin açılış mərasimində Çin Kommunist Partiyası (ÇKP) Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü Li Şuley, partiyanın Qansu vilayəti komitəsinin katibi Hu Çanşen, Çin Milli Mədəni İrs Administrasiyasının rəhbəri Li Çun və digərləri çıxış ediblər. Çıxışlarda tədbirin əhəmiyyətindən, tarixi İpək Yolu üzərində yerləşən ölkələr və xalqlar arasında mədəni mübadilənin əməkdaşlığa töhfə olacağından söz açılıb.

davamı səh. 3-də

## Bakıda 6-cı "Animafilm" Beynəlxalq Animasiya Festivalı keçirilir

### Müsabiqə proqramında 13 ölkədən 39 ekran işi yer alıb

Mədəniyyət Nazirliyinin, Azərbaycan Respublikası Kino Agentliyinin dəstəyi, Azərbaycan Animasiya Assosiasiyası və "Peri Film" MMC-nin təşkilatçılığı ilə 6-10 sentyabr tarixlərində Bakıda 6-cı "Animafilm" Beynəlxalq Animasiya Festivalı keçirilir.

Sentyabrın 6-da Nizami Kino Mərkəzində festivalın açılış mərasimi oldu.

"Qadın haqları" mövzusuna həsr olunan builki festivalın tərəfdaşları Azərbaycan Kinematoqrafçılar İttifaqı, Azərbaycan Yaradıcı Sənayelər Federasiyası, Çexiya və Fransanın ölkəmizdəki səfirlikləri, Azərbaycandakı Fransız İnstitutu və digər qurumlardır.

Açılış tədbirində Mədəniyyət Nazirliyinin nümayəndələri, ölkəmizdən və xaricdən kino xadimləri və kinosevərlər iştirak edirdi.

Əvvəlcə festivalın treyleri nümayiş olundu.

Tədbirdə çıxış edən mədəniyyət nazirinin müavini Səadət Yusifova bildirdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə, mədəniyyətin bütün sahələrində olduğu kimi, auidovizual sahənin də inkişafına xüsusi önəm verilir. Həyata keçirilən islahatlar, o cümlədən 2022-ci ildə dövlət başçısının fərmanı ilə Azərbaycan Respublikası Kino Agentliyinin yaradılması müasir çağırışlara cavab olaraq milli kinematoqrafiyanın yeni inkişaf perspektivlərini müəyyənləşdirir: "Qarşımızda duran əsas vəzifələrdən biri zəngin milli kino ənənələrini daha da inkişaf etdirmək və dünyaya açılmaqdır. Həmçinin kinematoqrafiyanın müasir təbliğat və təşviqat potensialını, mədəniyyətin ayrılmaz tərkib hissəsi kimi mədəni diplomatiyanın rolunu nəzərə alaraq ölkəmizdə dayanıqlı, müasir kino sənayesi yaratmaqdır. Hazırda yeni mədəniyyət konsepsiyası üzərində iş gedir. Konsepsiyada kino sənayesinin inkişafı üçün əlverişli mühitin yaradılması məsələləri də əksini tapacaq".






Animasiyanın kino sənayesinin müstəqil qollarından biri olduğunu vurğulayan nazir müavini ölkəmizdə bu sahənin də sənayeləşməsi, kommersiya baxımından cəlbedici olması, dövlət-özəl əməkdaşlığı kontekstində onun inkişafının təmin edilməsinin qarşıya məqsəd qoyulduğunu dedi: "Nazirliyin sifarişi, dəstəyi ilə dövlət və özəl studiyalarda müxtəlif animasiya filmlərinin istehsalı, "Animafilm" festivalına hər il dəstək verilməsi və s. bu kimi tədbirlər animasiya kinosunun inkişafına hədəflənmiş fəaliyyətdir. Tanıtım baxımından animasiya filmlərinin ekranlara və internet şəbəkələrinə çıxarılması çox vacibdir. Bu işdə kinofestivallar mühüm vasitədir. Bu baxımdan "Animafilm" festivalı ölkəmizdə kino sənayesinin inkişafında xüsusi əhəmiyyət kəsb edir".

davamı səh. 2-də

## Füzuli şəhərinə köç davam edir

İşğaldan azad edilmiş torpaqlara Böyük Qayıdışın növbəti ünvanı olan Füzuli şəhərinə köç davam edir.

Sentyabrın 7-də növbəti köç karvanı – 25 ailə (102 nəfər) Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınıb. Füzuliyə gələn ailələrə Prezidentin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Xüsusi nümayəndəliyinin və Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları tərəfindən mənzillərin açarları təqdim edilib. Onlar MİDA tərəfindən şəhərdə inşa olunan kompleksdə yaşayacaqlar.

Xatırladaq ki, Füzuliyə 23 ailədən ibarət ilk köç 18 avqustda gerçəkləşib. Avqustun 21-də 24 ailə, avqustun 22-də isə daha 23 ailə köçürülüb.

Beləliklə, indiyədək Füzuli şəhərində ümumilikdə 95 ailənin (349 nəfər) daimi məskunlaşması təmin edilib.

## Şamaxıda Xalq rəssamı Arif Hüseynovun yubiley sərgisi



Sentyabrın 7-də Şamaxı Yaradıcılıq Mərkəzində Xalq rəssamı Arif Hüseynovun anadan olmasının 80, yaradıcılıq fəaliyyətinin 55 illiyinə həsr edilmiş sərgi açılıb.

Tədbir Şamaxı Rayon İcra Hakimiyyətinin, Dağlıq Şirvan Regional Mədəniyyət İdarəsinin və Azərbaycan Rəssamlar İttifaqının birgə təşkilatçılığı ilə gerçəkləşib. Sərgidə rəssamın Azərbaycan nağıllarına, klassik şairlərin irsinə və aşıq yaradıcılığına həsr olunmuş əsərləri nümayiş olunub.

Tədbirdə rayonun icra başçısı Tahir Məmmədov, Azərbaycan Rəssamlar İttifaqının katibi Xalq rəssamı Ağaəli İbrahimov, Xalq artisti İlham Namiq Kamal, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev və digərləri yubilyarı təbrik edib, ona cansağlığı, yeni yaradıcılıq uğurları arzulayıblar.

## Azərbaycan xalçaları Berlində sərgilənir



Berlində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzində xalçalarımızın sərgisi təşkil edilib. Sərgi Azərbaycanın Almaniyadakı Səfirliyi və "Azərxalça" ASC-nin birgə təşkilatçılığı ilə ərsəyə gəlib.

Səfirlikdən verilən xəbərə görə, sərginin açılış tədbirində Almaniyanın dövlət qurumlarının təmsilçiləri, xarici ölkələrin diplomatları, yerli ictimaiyyətin, Almaniyada yaşayan azərbaycanlı, türk və digər icmaların nümayəndələri iştirak edib.

davamı səh. 8-də

## Əbədi kaman səs-sədalı...



Sentyabrın 8-i görkəmli kamança ifaçısı, musiqi mədəniyyətimizdə silinməz iz qoyan Xalq artisti Habil Əliyevin (1927-2015) anım günüdür.

Habil Əliyev Azərbaycanın qədim milli musiqi aləti kamançanın təsirli avazına yeni çalarlar qatmaqla onun imkanlarını yüksəklərə qaldırıb. Xalq mahnılarını, muğam və təsnifləri bənzərsiz ifası ilə həm Azərbaycan musiqisinin çoxəsrlik ənənələrini layiqincə davam etdirib, həm də ölkəmizdə kamança ifaçılığı məktəbinin püxtələşməsinə, bu alət üçün yeni əsərlərin yaradılmasına təkan verib.

Sənətkar Seyid Şuşinski, Həqiqət Rzayeva, Xan Şuşinski, Zülfü Adıgözəlov, Mütəllim Mütəllimov, Şövkət Ələkbərova, Sara Qədimova, Fatma Mehrəliyeva kimi görkəmli xanəndələri respublikamızda və onlarla xarici ölkədə qastrol səfərlərində böyük məharətlə müşayiət edib. Təkrarolunmaz ifaçılığı, mənəvi aləmə nüfuz etmək bacarığı və yüksək səhnə mədəniyyəti Habil Əliyevin qüdrətli sənətini musiqi bilicilərinə və saysız-hesabsız muğam pərəstişkarına sevdirib.

Hazırda sənətkarın adı doğulduğu Ağdaş rayonunda musiqi məktəbində yaşadılır. Həmçinin adına kamança ifaçılığı üzrə ənənəvi respublika müsabiqəsi keçirilir.

Paytaxtdan kənardakı teatrlar yeni mövsümə necə başlayır? səh. 3



Uşaq İncəsənət Festivalının final mərhələsi davam edir səh. 5

№66 (2035)
8 sentyabr 2023
www.medeniyyet.az

## Ağdam-Xankəndi yolundan imtina etmək siyasi manipulyasiyadır

Ermənistan və onun Azərbaycanın Qarabağ bölgəsində yaratdığı və dəstəkləməkdə davam etdiyi qondarma separatist rejim Ağdam-Xankəndi yolunun açılmasına qərəzli şəkildə imkan vermir və bu yoldan istifadənin qarşısının alınması üçün süni maneə və əngəllər yaradır.

Prezident İlham Əliyev bunu ABŞ dövlət katibi Antoni Blinkenlə telefon söhbətində deyib.

Xəbər verildiyi kimi, ABŞ dövlət katibi sentyabrın 1-də Azərbaycanın dövlət başçısına zəng edib. Telefon söhbəti zamanı Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarının açılması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Prezident diqqətə çatdırıb ki, ermənilər Beynəlxalq Qırmızı Xaç Komitəsinin xətti ilə bu yolla yüklərin daşınması barədə əldə olunmuş ilkin razılaşmadan imtina edib.

Dövlət başçısı qeyd edib ki, Ağdam-Xankəndi yolundan istifadədən bu formada imtina etmək siyasi manipulyasiyadır və həmin ərazidə guya humanitar, yaxud qida böhranının yaşandığını iddia etmək üçün məqsədyönlü yalandır. İlham Əliyev Azərbaycan Qızıl Aypara Cəmiyyətinin xətti ilə həmin əraziyə ərzaq yüklərinin çatdırıldığını, lakin qanunsuz separatist rejimin bundan imtina etdiyini bildirib.

Prezident diqqətə çatdırıb ki, Ağdam-Xankəndi yolunun açılmasından sonra Azərbaycanın gömrük və sərhəd-nəzarət rejimi qaydaları tətbiq edilməklə Laçın-Xankəndi yolu açıla bilər. Qeyd olunub ki, Azərbaycan tərəfi ilə razılaşdırmadan Ermənistan tərəfindən Azərbaycanın "Laçın" sərhəd-keçid məntəqəsinin qarşısına humanitar təyinatlı olduğunu iddia etdikləri yüklərin gətirilməsi Azərbaycanın daxili işlərinə qarışmaqdır, ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə hörmətsizlikdir. Ermənistanın bu kimi siyasəti sülh müqaviləsi üzrə danışıqlara ciddi zərər vurur.

Prezident İlham Əliyev Azərbaycanın Qarabağın erməni əhalisinin nümayəndələrinin reinteqrasiya məsələləri ilə bağlı müzakirələrin aparılması üçün paytaxt Bakıya və ölkəmizin digər şəhərlərinə dəvət edilməsinə baxmayaraq, onların bundan imtina etdiklərini də xatırladıb.

ABŞ dövlət katibi sülh müqaviləsinin imzalanması və Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində səylərini bundan sonra da davam etdirəcəklərini bildirib, Bakı ilə Xankəndi arasında birbaşa təmasları dəstəklədiklərini vurğulayıb.

## İctimai həyatda uzunmüddətli səmərəli fəaliyyətinə görə

Prezident İlham Əliyev sentyabrın 7-də yazıçı-publisist, şair, Əməkdar jurnalist Flora Xəlilovanın (Xəlilzadə) "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.

Flora Xəlilova Azərbaycan Respublikasının ictimai həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə təltif edilib.

## Yəhudi icması Azərbaycan-İsrail əməkdaşlığına ciddi töhfə verir

### Prezidentin köməkçisi İsrailə səfər edib



Yəhudi icması Azərbaycan cəmiyyətinin bir hissəsidir. Biz fəxr edirik ki, Azərbaycanın tarixində antisemitizmlə bağlı heç bir hal yaşanmayıb.

Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bunu İsraildə bu ölkənin "i24news" telekanalına müsahibəsində deyib.

O qeyd edib ki, yəhudi icmasının Azərbaycanda mədəniyyətin, dövlətçiliyin inkişafına verdiyi töhfə yüksək dəyərləndirilir.

"Ən çətin zamanlarda, İkinci Dünya Müharibəsi illərində yəhudilər Sovet İttifaqının şərqindən və qərbindən Azərbaycana miqrasiya edib, biz ağır zamanlarda öz çörəyimizi yəhudi qardaş-bacılarımızla bölüşmüşük", – deyə Hikmət Hacıyev əlavə edib.

Prezidentin köməkçisi vurğulayıb ki, Azərbaycanda yaşayan yəhudi icması bu ölkənin İsraillə əməkdaşlığının güclənməsinə də ciddi töhfə verir.

Qeyd edək ki, Hikmət Hacıyev İsrailə səfəri zamanı ölkənin Milli Təhlükəsizlik Şurasının rəhbəri Tsaxi Haneqbi, Xarici İşlər Nazirliyinin baş direktoru Ronen Levi və digər rəsmilərlə görüşüb. İsrailin Baş naziri Benyamin Netanyahu Azərbaycan Prezidentinin köməkçisini qəbul edib.

## "Türk dünyası böyük bir ailədir"

### Prezident İlham Əliyev: "Biz hər zaman bir-birimizin yanında olmalıyıq"

İki aydan sonra türk dövlətlərinin başçıları səviyyəsində zirvə görüşü keçiriləcək. İndi zirvə görüşünə böyük hazırlıq işləri gedir, o cümlədən fövqəladə halların idarə edilməsi istiqamətində də işlər gedir. Çünki hamımız yaxşı bilirik ki, son vaxtlar bölgəmizdə və bütövlükdə dünyada fövqəladə halların sayı kəskin artıb. Bunun bir çox səbəbləri var. Ancaq fakt odur ki, bu gün misli görünməmiş ölçüdə daşqınlar, zəlzələlər, yanğınlar adi hala çevrilib.




Prezident İlham Əliyev bunu sentyabrın 7-də Türk Dövlətləri Təşkilatının (TDT) üzv və müşahidəçi dövlətlərinin təbii fəlakət və fövqəladə halların idarə edilməsi üzrə nazirlərinin ikinci görüşünün və "Bakı-2023" beynəlxalq təliminin iştirakçılarını qəbul edərkən deyib.

Qəbulda Türk Dövlətləri Təşkilatının baş katibi Kubanıçbek Ömüraliyev, eləcə də Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Şimali Kiprin aidiyyəti nazirliklərinin rəhbərləri iştirak ediblər.

Dövlət başçısı fürsətdən istifadə edərək bu ilin 6 fevralında Türkiyədə dəhşətli zəlzələdə həlak olanların xatirəsini hörmətlə anaraq, qardaş dövlətə bir daha başsağlığı verib.

"Bildiyiniz kimi, Azərbaycan ilk saatlardan, ilk dəqiqələrdən bu dəhşətli zəlzələ ilə bağlı öz səylərini göstərmişdir. Hazırda Qəhrəmanmaraş şəhərində Azərbaycan dövləti tərəfindən inşa ediləcək şəhərciyin son parametrləri müəyyən edilir və yaxın zamanlarda biz inşaata başlayacağıq", – deyə İlham Əliyev əlavə edib.

Prezident vurğulayıb ki, Azərbaycanın bu istiqamətdə kifayət qədər təcrübəsi var. Son illər ərzində maddi-texniki bazamızın möhkəmləndirilməsi istiqamətində işlər aparılıb, xilasedicilərin peşəkarlığı artıb. Bütövlükdə müxtəlif bölgələrdə, o cümlədən Türk dünyası ölkələrində apardığımız xilasedici missiyalarımız əyani şəkildə bizim imkanlarımızı və niyyətimizi göstərir: "Biz hər zaman bir-birimizin yanında olmalıyıq, Türk Dövlətləri Təşkilatının inkişafı ilə bağlı bütün üzv ölkələr öz dəyərli töhfələrini verirlər, o cümlədən Azərbaycan. Azərbaycan bu təşkilatın güclənməsinə hər zaman öz dəstəyini əsirgəməmişdir və bizim xarici siyasət prioritetləri arasında təşkilata üzv ölkələrlə əlaqələr birinci yer tutur".

Dövlət başçısı daha sonra deyib: "Türk dünyası böyük bir ailədir və şadam ki, son illər ərzində bütün üzv və müşahidəçi ölkələr tərəfindən təşkilata böyük dəstək göstərilir. Təbii ki, növbəti illərdə də bu dəstək göstərilməlidir. Bu gün dünya miqyasında Türk Dövlətləri Təşkilatı öz layiqli yerini tuta bilibdir. Ancaq bundan sonra da fəal çalışmalıyıq ki, bizim təsir imkanlarımız daha da geniş olsun. Burada, əlbəttə ki, həm qarşılıqlı yardım, eyni zamanda, iqtisadi əlaqələrin gücləndirilməsi, siyasi müstəvidə daimi koordinasiya və məsləhətləşmələrin aparılması, təhlükəsizlik sahəsində qarşılıqlı yardım, yəni, bütün bunlar önəmli amillərdir və bizim birliyimizi daha da gücləndirəcək. Əminəm ki, yaxın gələcəkdə bizim təşkilatımızın dünyadakı mövqeyi və rolu daha da artacaqdır. Bir daha demək istəyirəm ki, Azərbaycan üçün türk dövlətləri ilə əlaqələr xarici siyasətdə birinci dərəcəli vəzifədir...".

Prezident Bakıda görüşdə ilk dəfə olaraq Şimali Kiprin nümayəndəsinin iştirak etməsini də xüsusi vurğulayıb: "Şimali Kipr naziri burada müşahidəçi kimi, amma eyni zamanda, öz bayrağı ilə təmsil olunur. Təbii ki, Şimali Kiprin bayrağı da bizim tədbirdə dalğalanmalıdır və dalğalanacaqdır. Azərbaycan bütün Türk dünyasında birləşən qardaşlarımızın hər zaman yanında olubdur və çox sevindirici haldır ki, son Zirvə görüşündə Şimali Kipr Türk Dövlətləri Təşkilatına müşahidəçi seçilmişdir. Bu münasibətlə bütün türk qardaşlarımızı ürəkdən təbrik edirəm. Bu, bir daha bizim birliyimizi göstərir, bir daha iradəmizi göstərir. Onu göstərir ki, biz haqq yolunda hər zaman bir-birimizin yanındayıq və yanında olacağıq".

Xatırladaq ki, 2022-ci il noyabrın 11-də TDT-nin Səmərqənddə keçirilən 9-cu zirvə toplantısında Şimali Kipr Türk Cümhuriyyəti təşkilata müşahidəçi üzv qəbul edilib.

TDT-nin növbəti, 10-cu zirvə toplantısının Qazaxıstanda keçirilməsi nəzərdə tutulur.

## Bakıda 6-cı "Animafilm" Beynəlxalq Animasiya Festivalı keçirilir

### Müsabiqə proqramında 13 ölkədən 39 ekran işi yer alıb

*əvvəli səh. 1-də*

Səadət Yusifova bildirdi ki, festivala 46 ölkədən ümumilikdə 174 film daxil olub. Seçim komissiyası müsabiqə proqramı üçün 13 ölkədən 39 filmi qəbul edib: "Hər il olduğu kimi, builki festival günlərində də tamaşaçılar yaxın-uzaq ölkələrdən təqdim edilən onlarla müasir animasiya filmi ilə tanış olmaqla yanaşı, bu sahənin peşəkarları ilə fikir mübadiləsi apararaq ustad dərslərində iştirak etmək imkanı qazanacaqlar.







Ümid edirik ki, artıq ənənə halını almış bu festival dünyanın ən nüfuzlu animasiya festivalları sırasında özünəməxsus yer tutacaq, ölkəmizdə animasiya sənətinin inkişafına və populyarlaşdırılmasına töhfə verəcək".

***

İsveçrə Konfederasiyasının Azərbaycandakı Səfirliyinin nümayəndəsi Alberto Hernandez, Niderland Krallığının ölkəmizdəki səfiri xanım Paulin Eizema və "Oscar" mükafatlı Niderland əsilli kinorejissor Maykl Dudok de Vitt çıxış edərək festival haqqında fikirlərini bölüşdülər.

Festivalın açılış tədbirində rejissor Nəzrin Ağamalıyevanın İranda etiraz aksiyaları zamanı təhlükəsizlik qüvvələri tərəfindən qətlə yetirilmiş Cənubi azərbaycanlı Hədis Nəcəfi haqqındakı "Hədis", isveçrəli rejissor İzabel Favezin "Hava poçtu" (Air Mail), niderland əsilli rejissor Maykl Dudok de Vittin "Ata və qız" (Father and Daughter), gürcüstanlı rejissor Ana Çubinidzenin müsəlman aləmində qanunverici orqana demokratik yolla seçilmiş ilk müsəlman (azərbaycanlı) qadından bəhs edən "Pərixanım Sofiyeva" filmləri, həmçinin "Alove" animasiya studiyasının "Sehrli xalça" animasiya filminin treyleri nümayiş etdirildi.

Qeyd edək ki, bu il festival tamaşaçılara müsabiqə, müsabiqədənkənar və peşəkarlar olmaqla üç əsas proqram təqdim edəcək. Filmlər 2 beynəlxalq və 2 yerli kateqoriya üzrə yarışacaq. "Ən yaxşı qısametrajlı animasiya filmi" kateqoriyası üzrə 11, "Uşaqlar üçün ən yaxşı qısametrajlı animasiya filmi" üzrə 10, "Ən yaxşı Azərbaycan qısametrajlı animasiya filmi" üzrə 8, "Ən yaxşı Azərbaycan tələbə qısametrajlı animasiya filmi" kateqoriyası üzrə isə 10 film proqrama salınıb.

Yerli kateqoriyanın qalibi, hər il olduğu kimi, bu il də Fransada keçirilən "Annecy" Beynəlxalq Animasiya Film Festivalında iştirak haqqı qazanacaq.

Festival çərçivəsində Nizami Kino Mərkəzində 20-yə yaxın tədbirin keçirilməsi və 60-dan çox animasiya filminin nümayişi nəzərdə tutulub.

Festivalın bilet satışlarından əldə olunacaq vəsait gənc qadın rejissorlarımıza dəstək məqsədilə ianə ediləcək.

**Nurəddin Məmmədli**

## Milli animasiya sənayesinin perspektivləri

### Dəyirmi masada müzakirə olundu



6-cı "Animafilm" Beynəlxalq Animasiya Festivalı çərçivəsində sentyabrın 7-də Heydər Əliyev Mərkəzində "Azərbaycan milli animasiya sənayesi üçün kommersiyalaşdırılma və ixrac imkanları perspektivləri" mövzusunda dəyirmi masa təşkil olundu.

Tədbirin moderatoru Ramil Abbəkirov animasiya sahəsində çalışan insanların bir masa arxasında toplanmasını əhəmiyyətli hadisə kimi dəyərləndirdi.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova çıxış edərək bildirdi ki, animasiya yaradıcı sənayenin vacib istiqamətlərindən biridir. Dövlət başçısının fərmanı ilə Mədəniyyət Nazirliyi yanında Azərbaycan Respublikasının Kino Agentliyinin yaradılması animasiya sənayesinin də inkişafına geniş imkanlar yaradacaq: "Qarşımızda duran əsas vəzifələrdən biri Azərbaycanın animasiya ənənələrini inkişaf etdirməklə bu sahənin gəlirlərinin və rəqabət qabiliyyətinin artırılması üçün xarici bazara çıxarılmasını dəstəkləməkdir. Bu baxımdan animasiya sahəsində təhsil, sahibkarlıq və məşğulluq imkanlarının artırılması, əqli mülkiyyət hüquqlarının qorunması və ondan istifadənin təmin edilməsi böyük əhəmiyyət kəsb edir. Sözügedən məsələlərin həllində müxtəlif güzəşt və təşviq alətlərinin, yeni innovativ və rəqəmsal həllərin tətbiqi, zəruri infrastrukturun formalaşdırılması da əsas şərtlərdəndir. Bütün bunları bir araya gətirdikdən sonra yerli və xarici auditoriya üçün yüksəkkeyfiyyətli animasiya məhsulu təqdim etmək, eyni zamanda məşğulluq göstəricilərinin artmasına nail olmaq mümkündür".

Animasiya sahəsinin inkişafı ilə bağlı real addımların atıldığını diqqətə çatdıran nazir müavini Mədəniyyət Nazirliyi kollegiyasının 2023-cü il 11 avqust tarixli qərarı ilə "Mədəniyyət və yaradıcı sənayelər üzrə şura"nın formalaşdırıldığını, bir sıra vacib tapşırıqların verildiyini dedi: "Bu tapşırıqlardan biri də məhz animasiya sahəsini əhatə edir. Bu gün animasiya sənayesinin inkişafı ilə bağlı fikir mübadiləsi və sıx əməkdaşlığa ehtiyac var. Mədəniyyət Nazirliyi bu sahənin də inkişafını diqqətdə saxlamağa çalışır. Bu il 6-cı dəfə təşkil edilən "Animafilm" festivalına nazirlik olaraq verdiyimiz dəstək bunun bariz nümunəsidir".

Kino Agentliyinin müşaviri Orxan Fikrətoğlu animasiya sahəsində istedadlı gənclərin olduğunu qeyd etdi. Bildirdi ki, bu yaradıcı gənclik kino və animasiya sahələrinə məzmunca yeniliklər gətirəcək.

Tədbirdə Almaniyada yaşayan azərbaycanlı animasiya rejissoru Məsud Pənahi, animator Elçin Axundov, "CinemaPlus" kinoteatrlar şəbəkəsi Müşahidə şurasının sədri Zaur Darabzadə, "Animafilm" festivalının direktoru, Azərbaycan Animasiya Assosiasiyasının sədri Rəşid Ağamalıyev və sahə üzrə ekspertlər fikirlərini bölüşdülər. Çıxışlarda milli-mənəvi dəyərlərimizi, bəşəri mövzuları əks etdirən animasiya filmlərinin çəkilməsi, yerli və xarici bazarlara çıxarılması məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

Dəyirmi masada Mədəniyyət Nazirliyi, Medianın İnkişafı Agentliyi, Əqli Mülkiyyət Agentliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, kinoteatrlar şəbəkəsinin nümayəndələri, xarici və yerli ekspertlər iştirak edirdi.

**Lalə Azəri**

əvvəli səh. 1-də

# Qədim İpək Yolu irsindən çağdaş mədəniyyət dialoquna

## Azərbaycan-Çin mədəni əlaqələrinin inkişafı üçün mühüm zəmin var

Qeyd edək ki, İpək Yolu Beynəlxalq Mədəniyyət Sərgisi Çin Kommunist Partiyası MK-nın və Dövlət Şurasının (Nazirlər Kabineti) birgə qərarı ilə 2016-cı ildən hər il Dunhuan şəhərində keçirilir. Sərginin təşkilatçıları Qansu Vilayəti Xalq Hökuməti, Mədəniyyət və Turizm Nazirliyi, Dövlət Mətbuat, Nəşr, Radio, Film və Televiziya İdarəsi, Milli Turizm Administrasiyası və Çin Beynəlxalq Ticarətin Təşviqi Şurasıdır.

Builki sərgidə dövlət rəsmiləri, ictimai xadimlər, incəsənət adamları da daxil olmaqla 1200-dən çox yerli və əcnəbi nümayəndə iştirak edib. İki gün davam edən sərgi çərçivəsində forum, konfrans, seminar, simpozium, görüş və konsert proqramları təşkil olunub.

Nazir Adil Kərimli tədbir çərçivəsində Çin Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü Li Şuley və Milli Mədəni İrs Administrasiyasının rəhbəri Li Çun ilə görüşüb.






### Azərbaycan İpək Yolu irsinin qorunmasına böyük əhəmiyyət verir

Sentyabrın 6-da Dunhuan şəhərində Beynəlxalq İpək Yolu Mədəniyyət Sərgisi çərçivəsində "İpək Yolu mədəni irsi və yeni sivilizasiya formasının qurulması" mövzusunda forum keçirilib.

Azərbaycanın mədəniyyət naziri forumda çıxış edib. Bu mötəbər tədbirə dəvətə və yüksək qonaqpərvərliyə görə təşkilat komitəsinə təşəkkürünü bildirən Adil Kərimli Çinə səfərinin çox məhsuldar və yaddaqalan olduğunu diqqətə çatdırıb.

Qeyd edilib ki, İpək Yolu boyu xalqların milli-mədəni dəyərlərinin qorunub saxlanılması, ənənələrə və birgə məqsədlərə sadiqlik xüsusilə qloballaşma dövründə dünya sivilizasiyasının sabitliyi və tərəqqisinə böyük töhfə verir.

Vurğulanıb ki, tarixən İpək Yolu boyunca əlaqənin təmin edilməsinə mühüm töhfələr verən Azərbaycan keçmişdəki missiyasını bu gün də davam etdirir: "Azərbaycan Böyük İpək Yolu ilə bağlı çoxsaylı beynəlxalq konfranslara ev sahibliyi edib və iri regional infrastruktur layihələrinin təşəbbüskarı olub. Bakı-Tbilisi-Qars dəmir yolu və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Çindən Qərbə daşımalar üçün əlverişli marşrut təklif edir. Eyni zamanda Azərbaycanda İpək Yolu mədəni irsinin qorunub saxlanılmasına böyük əhəmiyyət verilir. Tarixi abidələrin qorunmasını təmin etmək üçün müvafiq qanunvericilik bazası yaradılıb, institusional addımlar atılıb. Azərbaycan həm də UNESCO-nun "İpək Yolu" proqramının fəal üzvüdür".

Azərbaycanın mədəniyyətlərarası dialoqa da xüsusi önəm verdiyini diqqətə çatdıran nazir Prezident İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülən "Bakı Prosesi" haqqında məlumat verib. Deyib ki, hazırda BMT-nin Sivilizasiyalar Alyansı, UNESCO, Dünya Turizm Təşkilatı, Avropa Şurası və İCESCO-nun tərəfdaş olduğu "Bakı Prosesi" mədəniyyətlərarası dialoqa dair qlobal platformaya çevrilib.





Nazir çıxışının sonunda forumun işinə uğurlar arzulayıb.

### Çin səhnəsində "Qarabağ" və "Şuşanın dağları"

Forumda digər nümayəndələrin çıxışlarından sonra bədii proqram təqdim olunub. Nümayəndə heyətində yer alan incəsənət ustalarımız da maraqlı proqramla çıxış ediblər.

Konsertdə Əməkdar artist İlkin Əhmədov "Xudayar təsnifi"ni, xanəndə Günay İmamverdiyeva "Şuşanın dağları" mahnısını səsləndirib. Azərbaycan Dövlət Rəqs Ansamblının solistləri İnarə Zeynalova və Aydəmir Aydəmirov "Naz eləmə" rəqsini ifa ediblər.

Konsert proqramı Günay İmamverdiyeva-İlkin Əhmədov duetinin ifasında Bəhram Nəsibovun "Qarabağ" mahnısı ilə başa çatıb. Bütün ifalar böyük maraq və alqışlarla qarşılanıb.

### İşgüzar görüşlər üçün imkan

Qeyd etdiyimiz kimi, Dunhuan şəhərindəki beynəlxalq sərgi və foruma müxtəlif ölkələrdən nümayəndə heyətləri qatılıb. Bu baxımdan tədbir işgüzar görüşlər üçün də bir platformadır.

Nazir Adil Kərimli sentyabrın 6-da Moldova Respublikasının mədəniyyət naziri Sergiu Prodan ilə görüşüb.

Görüşdə iki ölkə arasında mədəni əlaqələrin mövcud vəziyyətinə nəzər salınıb, bu sahədə gələcək əməkdaşlıq üçün daha geniş potensialın olduğu vurğulanıb.

Sergiu Prodan gələn il Azərbaycanda Moldova mədəniyyəti günlərinin keçirilməsi təklifi ilə çıxış edib. Bu təkliflə bağlı fikir mübadiləsi aparılıb.

### Çin Milli Kitabxanası ilə tanışlıq

Mədəniyyət Nazirliyinin nümayəndə heyəti sentyabrın 7-də Çin Milli Kitabxanasını ziyarət edib.

Kitabxananın kitab fondu, nəşrlərin qorunması, oxuculara xidmət prosesi və burada fəaliyyət göstərən muzeylə tanışlıq olub.

Direktor xanım Çen Yin kitabxananın fəaliyyəti haqqında nümayəndə heyətinə məlumat verib.

Qeyd edək ki, Azərbaycan Milli Kitabxanası ilə Çin Milli Kitabxanası arasında uzun müddətdir əməkdaşlıq əlaqələri mövcuddur. 2015-ci ildə Azərbaycan Milli Kitabxanasında iki kitabxana arasında qarşılıqlı əməkdaşlıq barədə memorandum imzalanıb. Sənədə əsasən, Azərbaycan Milli Kitabxanasında Çin daimi guşəsi yaradılıb. Çin Milli Kitabxanasında da Azərbaycan daimi guşəsinin yaradılması nəzərdə tutulur.

Azərbaycan nümayəndə heyətinin Çinə səfəri sentyabrın 9-da başa çatacaq.

# Paytaxtdan kənardakı teatrlar yeni mövsümə necə başlayır?

Yay məzuniyyətindən qayıdan teatrlar yeni mövsümün açılışı üçün hazırlıqlar görürlər. Bu il 150 illik yubileyini yaşayan Azərbaycan peşəkar milli teatrının çağdaş təmsilçilərinin yeni mövsümdə, konkret olaraq 2023-cü ilin sonunadək hansı planları, sənət layihələri var? Bu dəfə paytaxtdan kənardakı teatrlara nəzər salacağıq. Başlayaq paytaxta ən yaxın sənət ocağından.



Sumqayıt Dövlət Dram Teatrı yubiley mövsümünə yeni layihələrlə başlayır. Üstəlik, bu il teatr özünün də yubileyini – 55 yaşını qeyd edir.

Mövsümün açılışı ilə bağlı ənənəvi iclasda yaxın zamanda tamamlanması planlaşdırılan "Varlı ev" (G.Xuqayev) tamaşası, üzərində oxu məşqləri aparılan "Ezop" əsəri (G.Fiqeyredo), yeni mövsümdə təqdim olunacaq "Uçqun" (T.Cücənoğlu), xalq nağılları əsasında işlənən "Yuxu", Azərbaycan Teatr Xadimləri İttifaqının "Klassika" festivalı üçün hazırlanan "Mühacirlər" (S.Mrojek) və s. tamaşalara dair müzakirələr aparılıb.

Kollektivin Bərdə şəhərinə planlaşdırılan qastrol səfəri barədə də danışılıb. Eləcə də teatrın bu günlərdə Laçın şəhərində nümayiş etdirdiyi "Missiya" mistik dramından da söz açılıb. Əslən Laçının Güləbird kəndindən olan Milli Qəhrəman Qorxmaz Eyvazov əsərin əsas obrazlarından biridir.

Öz səhnəsində isə kollektiv tamaşaçıları Ü.Hacıbəylinin "O olmasın, bu olsun" əsəri ilə salamlayacaq.

***



Şəki Dövlət Dram Teatrının yeni mövsüm açılışı sentyabrın 10-da Azərbaycan dramaturgiyasının banisi M.F.Axundzadənin "Hekayəti-xırs-quldurbasan" komediyası əsasında eyniadlı tamaşanın premyerası ilə olacaq. Tamaşanın quruluşçu rejissoru Orxan Həmidli, quruluşçu rəssamı və geyim üzrə rəssamı Sahib Əhmədov, baletmeysteri Çingiz Novruzəliyev, musiqi tərtibatçısı Zeynəb Orucovadır.

Həmçinin ilin sonunadək teatrın baş rejissoru Əməkdar incəsənət xadimi Mirbala Səlimlinin quruluşunda Bertolt Brextin "Kuraj ana və uşaqları" pyesi əsasında yeni tamaşanın hazırlanması nəzərdə tutulub.

***

Gəncə Dövlət Dram Teatrı mövsümün ilk tamaşası kimi sentyabrın 21-də Mikayıl Mikayılovun quruluşunda A.Saqarelinin "Xanuma"sını təqdim edəcək.

Hazırda teatrda Əməkdar incəsənət xadimi Bəhram Osmanovun quruluşunda Sabit Rəhmanın "Yalan" tamaşasının məşqləri gedir. Premyera oktyabr ayına nəzərdə tutulub.



İlin sonunadək repertuar planına uyğun olaraq üç tamaşanın da istehsalata buraxılması nəzərdə tutulur. Bunlar Əziz Nesinin "Toros canavarı", Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu" (tamaşa Tofiq Kazımovun 100, Həsənağa Turabovun 85 illiyinə ithaf olunacaq) və dramaturq Xanım Həsənovanın uşaqlar üçün "Şənliyə gəl" tamaşalarıdır.

Bundan əlavə, teatr oktyabrda Tural Mustafayevin quruluşunda "Kral ölür" (E.İonesko) tamaşası ilə Türkiyədə keçiriləcək iki beynəlxalq festivala qatılacaq, həmçinin eyni tamaşa ilə Azərbaycan teatrının 150 illiyi ilə əlaqədar Gürcüstana qastrola gedəcək.

***




Mingəçevir Dövlət Dram Teatrında mövsümün açılışı 21 sentyabra nəzərdə tutulub. Həmin gün gənc yazıçı Elçin Məhərrəmlinin "Yaddaş, təqvim və kukla" dram əsəri nümayiş olunacaq.

Hazırda Əhməd Orucoğlunun "Açarını itirənlər" pyesi əsasında hazırlanan eyniadlı tamaşanın stolarxası məşqləri gedir. Bundan əlavə, Xeyrəddin Qocanın "Zamanın ruzigarı" pyesi əsasında eyniadlı tamaşa da məşq mərhələsindədir. Hər iki səhnə əsərinə teatrın baş rejissoru Vüsal Mehrəliyev quruluş verir.

Balacaları da unutmayan yaradıcı heyət "Göyçək Fatma" xalq nağılı əsasında səhnələşdirilən eyniadlı tamaşanı təqdim edəcək. Tamaşanın rejissoru Əməkdar artist İntiqam Soltandır.

***

Qusar Dövlət Ləzgi Dram Teatrı yeni mövsümü sentyabrın 15-də Turqut Özakmanın "Adət" dramı əsasında hazırlanmış tamaşa ilə açacaq.

Yeni mövsümdə teatrın səhnəsində İdris Şamxalovun "Pərixanım", Mirzə Fətəlinin "Hekayəti-xırs-quldurbasan" və İsi Məlikzadənin "Hərənin öz ulduzu" tamaşaları bərpa ediləcək.

8 Noyabr – Zəfər Günü ərəfəsində Nəriman Həsənzadənin "Qarabağ Azərbaycandır! "Qarabağnamə"m İlhamdı" tamaşa-kompozisiyasının təqdimatı da nəzərdə tutulub.

***




Lənkəran Dövlət Dram Teatrı yeni mövsümə hazırdır. Kollektiv bu mövsümdə Əbdürrəhim bəy Haqverdiyevin "Müqəssir" (rejissor Abdulla Elşadlı), Çingiz Aytmatovun "Cəmilə" (rejissor İmran Əli Qurbanlı), Piter Turininin "Bu da axırı" (monotamaşa; rejissor A.Elşadlı) tamaşalarını tamamlamaqla yanaşı, Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "İki 23 arasında" (müəllif Q.Nəcəfzadə, rejissor E.Əskərov) səhnə işini də teatrsevərlərin ixtiyarına verəcək.

Teatr yeni mövsümə sentyabrın 24-də Xalq yazıçısı Kamal Abdullanın "Casus" tamaşası ilə başlayacaq.

***

Qax Dövlət Kukla Teatrı da balacaların görüşünə həvəslə hazırlaşır. 51-ci teatr mövsümünü sentyabrın 15-də açmağı düşünən yaradıcı heyət azyaşlı tamaşaçıları üçün son nümunələrindən olan "Tülkü və quyruq" nağıl-tamaşasını (O. Abdullayev) göstərəcək.

Hazırda teatrda Astrid Lindqrenin "Uzuncorab Pippi" əsəri üzərində məşqlər gedir. Bundan başqa, ilin sonunadək Əzizə Əhmədovanın "Necə boz ayı, aldı ev payı" pyesi əsasında eyniadlı tamaşa hazırlanacaq.

***

Gəncə Dövlət Kukla Teatrı isə 38-ci mövsümünü sentyabrın 16-da Üzeyir Hacıbəylinin "Məşədi İbad" musiqili komediyası ilə açacaq. Teatr ilin sonunadək iki yeni tamaşanın premyerası nəzərdə tutulur. Bunlardan biri Gəncədə yazıb-yaradan dramaturq-şairə Aləmzər Əlizadənin "Balqabağın ay yuxusu" (quruluşçu rejissor Şamil Məmmədli), digəri isə Korney Çukovskinin "Milçək-Vizilçək" (quruluşçu rejissor Zülfiyyə Əliyeva ) əsərləridir.

***



Salyan Dövlət Kukla Teatrı da özünün yubiley – 30-cu mövsümünə başlayır. Teatr tamaşaçıları ilə görüşə sentyabrın 15-də "Kaloğlanın sərgüzəştləri" ilə gələcək.

Yaradıcı heyətin Özbəkistana qastrol səfəri də nəzərdə tutulub. Salyanlı kuklaçılar ilin sonunadək İsgəndər Coşqunun "Tülkü həccə gedir" və Ələkbər Hüseynovun "Xoşbəxtlik quşu" kukla tamaşalarını da hazırlayacaqlar.

***

Ağdam Dövlət Dram Teatrı tamaşaçıları ilə görüşə sentyabrın 15-dən sonra gələcək.

Artıq repertuardakı tamaşaların hazırlıq məşqləri ilə yanaşı, yeni səhnə nümunələri üzərində hazırlıq prosesinə də başlanılıb. İlin sonunadək sənət ocağı dörd tamaşanı teatrsevərlərə təqdim edəcək. Bunlar "Hasarın o üzü" (Ə.Əmirli, rejissor S.Əhmədov), "Tor" (T.Məmməd, rejissor K.Həsənov), "Qisas" (X.Röya, rejissor K.Həsənov) və balacalar üçün nəzərdə tutulan "Sehrli sandıq" (K.Məmmədova, rejissor E.Hümbətov) əsərləri əsasında hazırlanacaq tamaşalardır.

***

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrı növbəti yaradıcılıq mövsümünə sentyabrın 22-də M.F.Axundzadənin "Lənkəran xanının vəziri" tamaşası ilə başlayacaq.

Hazırda teatrda bu ilin repertuarında olan iki tamaşanın – Elçinin "Şekspir" (rejissor Həcərxanım Məmmədova) və J.B.Molyerin "Skapenin kələkləri" (rejissor Mir Qabil Əkbərov) tamaşalarının masaarxası məşqləri başlayıb. Bundan başqa, gənc rejissor Əlisahib Cəlil Xalq yazıçısı Afaq Məsudun "Qatarın altına atılan qadın" pyesini plandankənar tamaşa kimi hazırlayacaq. Tamaşalar bu ilin sonuna qədər təhvil veriləcək veriləcək.

***

Hələlik paytaxtda fəaliyyətini davam etdirən Şuşa Dövlət Musiqili Dram Teatrının yaradıcı kollektivi sentyabrın 16-da Süleyman Sani Axundovun "Qaraca qız" hekayəsi əsasında hazırlanmış eyniadlı tamaşa ilə yenidən balaca tamaşaçıların görüşünə gələcək. Tamaşanın quruluşçu rejissoru Əməkdar artist Loğman Kərimov, quruluşçu rəssamı Valeh Məmmədov, musiqi tərtibatçısı Asyaxanım Heydərovadır.

Sentyabrın 17-də isə uşaqlar üçün "Göyçək Fatma" Azərbaycan xalq nağılı əsasında səhnələşdirilən eyniadlı tamaşa nümayiş olunacaq.

**H.Rüstəmova**

# Ölkəmiz Belarusda teatr festivalında təmsil olunacaq

## "Utancaq qız" Brestə də gedir...

8-16 sentyabr tarixlərində Belarusun Brest şəhərində XXVII Beynəlxalq "Belaya veja" Teatr Festivalı keçiriləcək. Ənənəvi festivalda ölkəmiz də təmsil olunacaq.

Rusiya, Bolqarıstan, Qazaxıstan, Sloveniya, Özbəkistan və digər ölkələrin incəsənət və teatr nümayəndələrini bir araya gətirən festivalda Azərbaycan Dövlət Akademik Musiqili Teatrının direktoru Əməkdar incəsənət xadimi Əliqismət Lalayev festivalın münsiflər heyətində yer alacaq.

Festivalda Akademik Musiqili Teatrın "Utancaq qız" (F.Dostoyevski) monotamaşası da nümayiş olunacaq.

Səhnə əsəri sentyabrın 10-da Əməkdar artist Şövqi Hüseynovun ifasında Brest Akademik Dram Teatrının səhnəsində təqdim olunacaq. Quruluşçu rejissoru Xalq artisti Cənnət Səlimova, ideya müəllifi Ə.Lalayev olan bu səhnə əsəri indiyə qədər bir sıra beynəlxalq festivallarda mükafata layiq görülüb.

# “Tuğ” qoruğunun tərkibinə ölkə və yerli əhəmiyyətli abidələr daxil edilib

İşğaldan azad edilmiş Xocavənd rayonunun Tuğ kəndi ərazisindəki ölkə əhəmiyyətli memarlıq abidələri olan Alban məbədi (1197-ci il, Tuğ kəndi) və Qırmızı məbəd (1000-ci il, Tuğ kəndi) yeni yaradılan "Tuğ" Dövlət Tarix-Memarlıq və Təbiət Qoruğunun tərkibinə daxil edilib.



Bundan əlavə, kəndin ərazisindəki yerli əhəmiyyətli memarlıq abidələri – iki məbəd (XIII əsr və 1747-ci il) və bir körpü (XVIII əsr, kəndin yaxınlığında) də qoruğun tərkibinə daxil edilib.

Nazirlər Kabineti bununla bağlı qərar qəbul edib. Baş nazir Əli Əsədov tərəfindən 6 sentyabrda imzalanan qərarla "Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarında və Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin Siyahısı"nın "Memarlıq abidələri" bölməsində müvafiq dəyişikliklər edilib.

Xatırladaq ki, Prezident İlham Əliyev 16 iyun 2023-cü il tarixində Xocavənd rayonu Tuğ kəndinin tarixi əhəmiyyətini nəzərə alaraq, ətraf ərazilərdə mədəni və təbii irsin kompleks şəkildə qorunması, habelə burada turizmin inkişaf etdirilməsi məqsədilə "Tuğ" Dövlət Tarix-Memarlıq və Təbiət Qoruğunun yaradılması haqqında sərəncam imzalayıb.

Sərəncamda qeyd olunur ki, Azərbaycanın tarixi yaşayış məntəqələrindən biri Qafqaz Albaniyasının qədim irsinə aid mədəniyyət abidələrinin mövcud olduğu Tuğ kəndidir. Tuğ kəndi eyni zamanda zəngin təbii potensiala və ekoloji resurslara malikdir. Şuşa şəhərinə aparan Zəfər yolu üzərində yerləşməsi kəndin turizm baxımından inkişaf perspektivini də artırır.

Sərəncamla Xocavənd rayonunun Tuğ kəndinin tarixi ərazisi "Tuğ" Dövlət Tarix-Memarlıq və Təbiət Qoruğu elan edilib. Nazirlər Kabinetinə qoruğun sərhədlərini və mühafizə zonasını müəyyənləşdirib təsdiq etmək, maddi-texniki təminatı ilə bağlı zəruri tədbirlər görmək, Dövlət Turizm Agentliyinə qoruğun idarə olunmasını təmin etmək tapşırılıb.

# Şəkidə yerli sənətkarlarla görüş

Şəki-Zaqatala Regional Mədəniyyət İdarəsinin (RMİ) təşkilatçılığı ilə Şəki şəhərindəki M.K.Hacıoğlu adına Sənətkarlar evində yerli sənətkarlarla görüş keçirilib.

RMİ-nin rəisi vəzifəsi səlahiyyətlərini müvəqqəti icra edən Nargilə Qafarova bildirib ki, hər bir xalqın tarixi yaratdığı sənətkarlıq nümunələrində öz əksini tapır. Sadə əl əməyinə əsaslanan əşyalar, məişət avadanlıqları qədim dövrlərdən xəbər verir.



Şəbəkə ustaları Soltan İsmayılov, Hüseyn Hacımustafazadə, təkəlduz ustası Güləndam Alxasova məşğul olduqları sahələr haqqında danışıblar. Ustalar həmçinin unudulmaqda olan sənətə marağın artırılması ilə bağlı öz təkliflərini dilə gətiriblər.

Qeyd edək ki, Şəki şəhəri əsrlər boyu ipəkçilik, papaqçılıq, misgərlik, dəmirçilik, dulusçuluq, şəbəkə, ağac üzərində oyma və digər istehsal sahələri ilə məşhur olub. Şəkili sənətkarların istehsal etdikləri məhsullar yerli tələbatı ödəməklə yanaşı, xarici bazarlara da yol tapıb.

# Gənc rəssamın sərgisi

Lənkəran şəhər Heydər Əliyev Mərkəzində gənc rəssam Lamiyə Niftullayevanın fərdi sərgisi təşkil edilib.



Mərkəzin direktoru Reyhanə Sadıxova sərgi ilə bağlı təəssüratlarını bölüşüb, ilk fərdi sərgisi münasibətilə rəssama təbriklərini çatdırıb, yaradıcılıq uğurları arzulayıb.

Qeyd edilib ki, Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasəti bu gün onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir.

Çıxışlardan sonra tədbir iştirakçıları sərgi ilə tanış olublar. Sərgidə gənc rəssamın müxtəlif mövzuda çəkdiyi əl işləri yer alıb.

# Sağlamlıq imkanları məhdud uşaqlar Qəbələ qoruğunda olublar

Sağlamlıq imkanları məhdud uşaqlar valideynləri ilə birgə Qəbələ Dövlət Tarix-Bədii Qoruğuna səfər ediblər.




Qoruqdan bildirilib ki, uşaqlar və onların valideynləri əvvəlcə Qəbələ Arxeoloji Mərkəzi və burada sərgilənən arxeoloji materiallarla tanış olublar.

Daha sonra ziyarətçilər mərkəzin akt zalında "Qafqaz Albaniyasının paytaxtı – Qəbələ" sənədli filmini izləyiblər. Qədim Azərbaycan dövləti haqqında film tamaşaçıların marağına səbəb olub.

# Kəlbəcər şəhəri necə qurulacaq?

## Şəhərsalma məsələləri üzrə işçi qrupu ilk dəfə Kəlbəcərdə toplanıb

Sentyabrın 7-də Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Şəhərsalma məsələləri üzrə işçi qrupunun Kəlbəcər şəhərində iclası keçirilib.



Toplantıda Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini Namiq Hümmətov, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov, İdarələrarası Mərkəzin katibliyinin rəhbəri Nüsrət Süleymanov və Şəhərsalma məsələləri üzrə işçi qrupunda təmsil olunan qurumların nümayəndələri iştirak ediblər.

İclasda Kəlbəcər rayonunda aparılan şəhərsalma fəaliyyəti və layihələndirmə işləri haqqında ətraflı məlumat verilib, daxili yol-küçə şəbəkəsinin planlaşdırılması, yaşayış məntəqələrinin elektrik enerjisi və su ilə təminatı, eləcə də digər infrastruktur obyektlərinin bərpası istiqamətində görüləcək işlər, bölgənin turizm potensialının inkişafı məsələləri müzakirə edilib. İşçi qrupunun bir qayda olaraq işğaldan azad olunmuş şəhərlərimizdə toplandığını diqqətə çatdıran Namiq Hümmətov Kəlbəcərdə ilk belə tədbirin keçirildiyini vurğulayıb.

### 2026-cı ilədək 15 yaşayış məntəqəsinin bərpası həyata keçiriləcək

İclasda məlumat verilib ki, Kəlbəcər şəhərinin Baş planı hazırda aidiyyəti dövlət qurumları ilə razılaşdırma mərhələsindədir. Ölkə rəhbərliyinin göstərişləri əsasında inkişaf konsepsiyasına uyğun olaraq rayon infrastrukturu sürətlə yenilənməkdədir. Cari ildə dövlət başçısı tərəfindən Kəlbəcər şəhərində ilk yaşayış məhəlləsinin, 960 şagird yerlik orta məktəb binasının, habelə rayonun Zar, Zallar və Yanşaq kəndlərinin təməli qoyulub. Qeyd edilənlərin layihələndirməsi ilə yanaşı, İstisu qəsəbəsində mehmanxana kompleksi və su istehsalı zavodu tikilir.

Mövcud plan üzrə 2023-cü ildə Kəlbəcər rayonunda daha 7, 2024-cü ildə isə 4 yaşayış məntəqəsinin layihələndirilmə işləri aparılacaq. Ümumilikdə 2026-cı ilədək 1-i şəhər, 1-i qəsəbə, 13-ü kənd olmaqla 15 yaşayış məntəqəsinin bərpası həyata keçiriləcək.

Həmçinin bildirilib ki, işğaldan azad edilmiş torpaqlarda yaşayış ərazilərinin minalardan təmizləmə prosesi də sürətlə davam etdirilir. 2023-cü ilin 8 ayı ərzində rayonda yaşayış məntəqələri torpaqları üzrə təxminən 1105 hektar sahədən 653 hektarı minalardan təmizlənib.

İnfrastruktur məsələlərinə gəldikdə, Kəlbəcər şəhərində yaşayış məntəqələrinin küçə-yol şəbəkəsinin qurulması istiqamətində ümumi uzunluğu 27,08 km olan yol-küçə şəbəkəsinin hazırda 18,87 km-lik hissəsinin layihələndirildiyi qeyd olunub.

Eyni zamanda Kəlbəcər rayonunda 2026-cı ilə qədər təxminən 2000 ədəd fərdi yaşayış evinin və 1500 ədəd mənzilin – ümumilikdə 3500 ədəd evin tikilərək istismara verilməsi nəzərdə tutulur.

İclasdan sonra işçi qrupunda təmsil olunan qurumların nümayəndələri Kəlbəcər şəhərində inşası aparılan ilk yaşayış məhəlləsinə baxış keçiriblər.

# "Heydər Əliyev İli" tədbirləri davam edir






Yevlax şəhər Mədəniyyət Mərkəzində "Heydər Əliyev və ordu quruculuğu" adlı tədbir keçirilib. Çıxış edənlər Ulu öndərin hərb sahəsinə göstərdiyi diqqət və qayğıdan, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı Qələbədən söz açıblar. Sonda tədbir iştirakçıları Azərbaycanın hərb tarixinə həsr olunmuş filmi izləyiblər.

***

Naftalan şəhər Heydər Əliyev Mərkəzində "Ulu öndər Heydər Əliyevin əvəzsiz milli irsi" mövzusunda tədbir keçirilib. Əvvəlcə mərkəzin ekspozisiya zalında Ulu öndərin ömür yolunu özündə əks etdirən fotolara baxış olub. Dəyirmi masa ətrafında davam edən tədbirdə çıxış edənlər "Heydər Əliyev İli" münasibətilə keçirilən tədbirlərin dahi liderin ideyalarının təbliği və gənc nəsillərə ötürülməsi baxımından əhəmiyyət kəsb etdiyini vurğulayıblar.





Goranboy rayon Mədəniyyət Mərkəzinin tabeliyindəki Qazanbulaq, Borsunlu, Qaradağlı kənd mədəniyyət evləri, Veyisli, Kələk, Şıxlar, Qazançı, Nadirkənd, Həmənli, Qarasuçu, Qırıxlı, şəhər 1 və 2 saylı klubların təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycan mədəniyyəti" adlı tədbir keçirilib. Sonda Ulu öndərə həsr olunmuş "Əsrin adamı" sənədli filmi nümayiş olunub.

***

Astara rayon Mərkəzi Kitabxanasının Uşaq şöbəsində "Heydər Əliyev və uşaqlara diqqət" adlı rəsm müsabiqəsi keçirilib. Kitabxananın fəal oxucularının iştirak etdiyi müsabiqədə Zərifə Həsənova, Aysel Quluzadə I, Sevginur Kərimli, Nigar Əliyeva II, Zəhra Qurbanzadə isə III yerə layiq görülüb. Qaliblərə fəxri fərman verilib.

Cəlilabad Dövlət Rəsm Qalereyasında Heydər Əliyevin 100 illik yubileyi münasibətilə "Ulu öndər və Azərbaycan" başlığı altında sərgi təşkil edilib. Sərgidə qalereyanın bərpaçı-rəssamı Ramilə Quliyevanın əsərləri, həmçinin Ulu öndərin həyatı və siyasi fəaliyyətini əks etdirən fotolar nümayiş etdirilib.

Masallı Dövlət Rəsm Qalereyası, rayon Tarix-Diyarşünaslıq Muzeyi və "Viləş STV" istirahət mərkəzinin birgə təşkilatçılığı ilə "Tarix heç nəyi unutmur" mövzusunda tədbir keçirilib. Ulu öndərin ordu quruculuğu sahəsində göstərdiyi xidmətlərdən söz açılıb.

Masallı Tarix-Diyarşünaslıq Muzeyində "Naxçıvandan başlayan müstəqilliyin bərpası" adlı dəyirmi masa təşkil edilib. Ümummilli liderin hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olduğu zamanlarda müstəqil dövlətçilik ənənələrimizin bərpası və inkişaf etdirilməsi sahəsində tarixi addımlarından söhbət açılıb. Sonra tədbir iştirakçıları muzeyə ekskursiya ediblər.

**Hazırladı: N.Məmmədli**

# Tarixi Zəfər əbədi qürur mənbəyimizdir

Astara Tarix-Diyarşünaslıq Muzeyində Vətən müharibəsi iştirakçısı İlqar Həsənzadə ilə görüş keçirilib. Muzeyin direktoru Gülzar İsmayılova 44 günlük Vətən müharibəsinin tariximizdəki müstəsna əhəmiyyətindən danışıb.

İlqar Həsənzadə döyüş yolundan söz açıb. O, Vətən müharibəsində qazanılan Zəfərin hər bir azərbaycanlı üçün qürurverici olduğunu söyləyib.

İlqar Həsənzadə "Vətən uğrunda", Füzuli və Xocavəndin azad olunmasına görə medalları ilə təltif olunub.

Muzeyin əməkdaşları Vətən müharibəsinin şəhid giziri Vüsal Nəhmətovun ailəsini ziyarət ediblər, qayğıları ilə maraqlanıblar.

Vüsal Üzeyir oğlu Nəhmətov 1987-ci il oktyabrın 2-də Astara rayonunun Səncərədi kəndində anadan olub. Vətən müharibəsi zamanı oktyabrın 4-də Füzulinin azadlığı uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.



# Dövlətyarlı və Baş Qərvənd də "ağıllı kənd" layihəsi ilə qurulacaq

## Füzuli və Ağdam rayonlarının iki kəndi...

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq 2026-cı ilin sonuna qədər 34 min 600 ailənin köçürülməsi nəzərdə tutulur. Bu istiqamətdə bərpa ediləcək şəhər, kənd və qəsəbələrin konkret siyahısı təsbit olunub. Bu layihə çərçivəsində ən önəmli komponentlərdən biri də "ağıllı kənd" və "ağıllı şəhər"lərin tikintisidir. Məlumdur ki, ilk belə kənd Zəngilan rayonunun Ağalı kəndində salınıb və sakinlərin istifadəsinə verilib. Növbəti belə bir kənd isə Füzuli rayonunun Dövlətyarlı kəndində tikiləcək.

Bunu Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov deyib.

Onun sözlərinə görə, Dövlətyarlı kəndində layihələndirilmə işləri yekunlaşmaq mərhələsindədir. Kənddə bir ay ərzində torpaq işlərinə başlanılacaq. Dövlət satınalmaları proseduru artıq işə başlayıb.

Emin Hüseynov qeyd edib ki, bu istiqamətdə üçüncü belə bir layihə Ağdam rayonunun Baş Qərvənd kəndində reallaşacaq. Digər əvvəlki layihələrdən fərqli olaraq Baş Qərvənd kəndinin Slovakiya mütəxəssisləri tərəfindən layihələndirilərək "ağıllı kənd" kimi bərpa olunması nəzərdə tutulur: "Bu layihə də Azərbaycan dövlətinin vəsaiti hesabına həyata keçiriləcək. Amma burada məhz Slovakiyanın mütəxəssisləri və mühəndisləri tərəfindən bir sıra ölkələrdə infrastruktur sahəsində tətbiq olunan "ağıllı" həllər həyata keçiriləcək. Hesab edirik ki, bu da bərpa prosesində baş verən yeniliklərdən biridir".




Layihə çərçivəsində Baş Qərvənd kəndinin ərazisi 470 hektardır. Kəndə birinci mərhələdə 917, növbəti mərhələdə isə 600 ailənin köçürülməsi nəzərdə tutulub.

# Kazan kinofestivalı çərçivəsində Heydər Əliyevin 100 illiyinə həsr olunmuş fotosərgi

Xəbər verdiyimiz kimi, 5-9 sentyabr tarixlərində XIX Kazan Beynəlxalq Müsəlman Filmləri Festivalı keçirilir. Tatarıstanın paytaxtında 2005-ci ildən təşkil olunan ənənəvi festivalda ölkəmiz də təmsil olunur.

Festival çərçivəsində Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş fotosərgi açılıb. Bundan əlavə, sentyabrın 5-də Kazan şəhərindəki "Mir" kinoteatrında "Heydər Əliyev – əfsanə insan" sənədli filmi (CBC TV-nin istehsalı) "festivalın xüsusi tədbiri" kimi nümayiş etdirilib.



Təqdimatda festivalın icraçı direktoru, "Tatarkino"nun rəhbəri Milyauşa Aytuqanova, festivalın münsiflər heyətinin üzvü, azərbaycanlı rejissor və prodüser Fariz Əhmədov, "Tatarıstan Azərbaycan Milli Mədəni Muxtariyyəti"nin regional ictimai təşkilatının sədri Bəhram Mustafayev və diasporumuzun təmsilçiləri, yerli ictimaiyyət nümayəndələri, mədəniyyət xadimləri iştirak ediblər.

Milyauşa Aytuqanova XIX Kazan Beynəlxalq Müsəlman Filmləri Festivalında Azərbaycan xalqının Ümummilli liderinin yubileyinin qeyd edilməsinin əlamətdar hadisə olduğunu deyib. Diqqətə çatdırıb ki, "Azərbaycanfilm" kinostudiyası Kazan festivalının rəhbərliyinə Heydər Əliyevin 100 illiyinə həsr olunmuş tədbirlərin təşkili təklifi ilə müraciət edəndə buna məmnuniyyətlə razılıq veriblər.

"Rusiya ilə Azərbaycan arasında ənənəvi olaraq isti münasibətlər inkişaf edib. Bunda isə Heydər Əliyev əsas rol oynayıb. Rəmzi xarakter daşıyır ki, Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər Kazan Film Festivalının ilk tədbirinə çevrildi. "Mir" kinoteatrında tematik fotosərgi və filmin nümayişini təşkil etməyimiz bizim üçün böyük şərəfdir. Üstəlik, Tatarıstanda 20 min nəfərdən çox azərbaycanlı icması yaşayır", – deyə o vurğulayıb.

Qeyd edək ki, festival çərçivəsində açılan sərgidə Heydər Əliyevin tanınmış mədəniyyət xadimləri, eləcə də siyasətçilərlə görüşlərdən arxiv fotoları təqdim olunur.

## Uşaq İncəsənət Festivalının final mərhələsi keçirilir

Müstəqillik tariximizin ən böyük incəsənət layihələrindən olan Uşaq İncəsənət Festivalının final mərhələsi 1-9 sentyabr tarixlərində Bakıda keçirilir.

21 nominasiyanı əhatə edən festivalın final mərhələsi paytaxtda altı mədəniyyət müəssisəsində – M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyası, Akademik Milli Dram Teatrı, Beynəlxalq Muğam Mərkəzi, Milli Xalça Muzeyi, Akademik Musiqili Teatrı və Dövlət Uşaq Filarmoniyasında gerçəkləşir.

Qeyd edək ki, Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkil etdiyi festivalın baş sponsoru "BP Azerbaijan" şirkətidir.

Üç yaş qrupu (6-9 yaş, 10-13 yaş və 14-17 yaş) üzrə keçirilən festivala respublikanın bütün rayon və şəhərlərindən 27 minədək müraciət olmuşdu. Peşəkar və həvəskar kateqoriyaları üzrə təşkil olunan festivalın birinci mərhələsi aprel-iyun, II mərhələsi isə iyul-avqust aylarını əhatə edib.

**Nurəddin**

## "Mənim düşüncəm" – uşaq və gənclər üçün yaradıcılıq müsabiqəsi

Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC, Xətai Rayon İcra Hakimiyyəti, Azərbaycan Rəssamlar İttifaqı, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə "Heydər Əliyev İli" çərçivəsində "Mənim düşüncəm" adlı Respublika yaradıcılıq müsabiqəsi elan olunub.

Gənc nəsildə yaradıcı düşüncənin inkişafını təşviq etmək məqsədi daşıyan ənənəvi müsabiqə 9-21 yaş arasında uşaq və gənclər üçün nəzərdə tutulub. İştirak etmək istəyənlər yaradıcılıq işinin adı və fotosu ilə bərabər özləri haqqında məlumatı (ad, soyadı, təvəllüd, təhsil aldığı məktəb, əlaqə nömrəsi) dusuncem23@gmail.com ünvanına göndərə bilərlər.




Müraciətlər 2023-cü il 2 oktyabr tarixinədək qəbul olunur.

Müsabiqəyə təsvir və tətbiqi sənət nümunəsi ilə yanaşı, bir texnologiya işi ilə də qatılmaq olar. Seçimdə fərqli fikir və kreativ düşüncəli yaradıcılıq nümunələrinə, təkrar olmayan, müdaxilə olunmamış (müəllim, valideyn) və əvvəlcə sərgilənməmiş işlərə üstünlük veriləcək.

Seçim müəlliflərin yaşı nəzərə alınmaqla aparılacaq. Müəlliflər mövzu, ölçü və texnika seçimində sərbəstdirlər. Ən çoxu 2 əsər təqdim etmək olar.

Seçilən işlər Xətai Sənət Mərkəzində sərgilənəcək. Əl işləri nümayiş olunan müəlliflər sertifikatla və fəal tədris mərkəzləri (dərnək, incəsənət məktəbi və s.) təşəkkürnamə ilə təltif olunacaq.

## Türk sənəti, tarixi və folkloru Bakıda konfransda müzakirə olunub

Sentyabrın 5-də Milli Azərbaycan Tarixi Muzeyində (MATM) 17-ci Beynəlxalq Türk Sənəti, Tarixi və Folkloru Konfransı keçirilib.

MATM, Aydın Adnan Menderes və Konya Səlcuq universitetləri (Türkiyə), eləcə də AMEA-nın birgə təşkil etdiyi tədbir hibrid formatda (əyani və onlayn) gerçəkləşib. Konfransa Azərbaycan, Türkiyə, Özbəkistan, Türkmənistan, Ukrayna, İran, Rusiya, Moldova, Hindistan və digər ölkələrdən alim-tədqiqatçılar qatılıb.

Konfransda çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli bu cür tədbirlərin elmi, ədəbi, mədəni əlaqələrin inkişafında rolunu qeyd edib.

Muzeyin baş direktoru akademik Nailə Vəlixanlı, muzeyin icraçı direktoru dosent Fərhad Cabbarov, AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun baş direktoru tarix elmləri doktoru, professor Kərim Şükürov, Aydın Adnan Menderes Universitetinin professoru Ahmet Aytaç, Səlcuq Universitetinin professoru Osman Kunduracı türk sənəti, tarixi və folklorundan bəhs ediblər.



Azərbaycan, Türkiyə, Özbəkistan, Türkmənistan və digər ölkələrdən olan alimlərin mövzu üzrə məruzələri dinlənilib, müzakirələr aparılıb.

# İndi sənətçi kimi tanıyırıq, vaxt gələcək...

## Aktrisa Səbinə Məmmədzadə Türkiyədə magistr təhsili alacaq

Teatrdan yazan həmkarlarımın da yəqin başına az gəlməyib: hansısa tamaşanın quruluşçu rejissoru, teatrın inzibati, ya da yaradıcı rəhbərliyindən kiminləsə söhbətdə hər hansı tamaşa barədə ürək açmayan fikir söyləyən kimi qarşındakının ilk iradı aktyorların ünvanına deyiləcək: öyrənmək, biliklərini artırmaq istəmirlər, tənbəldirlər, xüsusən də gənclər…

Bu gün isə biz haqqında xoş fikirlər eşitdiyimiz gənc aktrisadan danışırıq. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının aktrisası Səbinə Məmmədzadə bu il Türkiyənin sayılıb-seçilən ali təhsil ocaqlarından birinin – Mərmərə Universitetinin magistraturasına daxil olub.

*– Səbinə xanım, əvvəlcə sizi təbrik edirəm. Sizi daim öz üzərində işləyən, bilik-bacarığını artıran aktrisa kimi tanımışıq. İndi də magistr təhsili...*

– Təbrikə görə çox sağ olun. Artıq on ildir ki, Gənc Tamaşaçılar Teatrında çalışıram. Həm uşaqlar, həm də böyüklər üçün tamaşalarda çıxış edirəm. Xoşbəxt aktrisayam ki, ayrı-ayrı rejissorların tamaşalarında rol almışam. Öyrənmək, çalışmaq məsələsinə gəlincə, mən həmişə öz sənətimlə bağlı biliyimi artırmağa hazıram. Seriallardan aldığım qonorarı da Rusiyadakı yay məktəblərinə, yaradıcılıq laboratoriyalarına qatılmaq üçün xərcləyirəm.

*– Amma özünüz də teatr studiyası yaratmısınız...*

– Bəli, üç ildir ki, bizim studiyamız fəaliyyətdədir. İstədim ki, Bakıda, şəhər ətrafında yaşayan, sənətə həvəs göstərən uşaqlar, yeniyetmələr bu studiyada məşğul olsunlar, görkəmli sənətkarlar onlar üçün ustad dərsləri keçsinlər. Çox valideynin uşağın əlindən tutub şəhərin mərkəzinə gətirmək imkanı yoxdur. Odur ki, biz qəsəbələrə üz tutduq. Mədəniyyət evlərində studiyanın filiallarını yaratdıq. Son işlərimizdən biri də Laçında oldu ki, mediada işıqlandırıldığından təkrar danışmağa ehtiyac duymuram.

*– Əvvəlcə Bakı Xoreoqrafiya Məktəbini, sonra da Mədəniyyət və İncəsənət Universitetini dram rejissorluğu ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmisiniz. Türkiyədə hansı istiqamət üzrə təhsil alacaqsınız?*

– Mərmərə Universitetində menecment, teatr prodüserliyi üzrə təhsil alacağam. Bir az zaman və maliyyə baxımından çətindir, təhsil ödənişlidir. Amma fikirləşirəm ki, layiq görüldüyüm Prezident mükafatını təhsilimə xərcləyib özümə, gələcəyimə sağlam yatırım edim. Düşünürəm ki, menecment təhsili daha maraqlı və böyük layihələr üzərində çalışmaq, hərtərəfli uğur qazanmaq üçün mənə düzgün yol göstərəcək. O zaman təkcə aktrisa kimi yox, həm də teatr sahəsi üzrə prodüser, menecer kimi də milli teatrımıza xidmət edə biləcəyəm.




Sənət hədəflərini düzgün müəyyən edən, uzaqgörən yaradıcılıq planları quran və öz hədəflərinə doğru inamla gedən gənc aktrisaya sənət və təhsil həyatında uğurlar arzulayırıq.

**Gülcahan Mirməmməd**

"Heydər Əliyev İli"

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları "Heydər Əliyev İli"nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (59)

### 1995-ci il 13 oktyabr

Prezident Heydər Əliyev Xalq şairi Bəxtiyar Vahabzadənin 70 illiyinə həsr olunmuş təntənəli gecədə iştirak edib.

Yubiley münasibətilə Bəxtiyar Vahabzadəyə təbrik məktubu ünvanlayıb. "Xalqın düşüncə və arzuları, hiss və duyğuları, istək və amalları həmişə Sizin zəngin yaradıcılığınızın, mübariz poeziyanızın cövhəri olmuşdur", – deyə təbrikdə vurğulanırdı.

### 1995-ci il 19 oktyabr

Azərbaycan musiqi mədəniyyətinin inkişafında misilsiz xidmətləri olan Rəşid Behbudovun 80 illik yubileyi haqqında sərəncam imzalayıb.

### 1995-ci il 31 oktyabr

Azərbaycan Respublikasının yeni Konstitusiyasının layihəsində dövlət dili haqqında maddə ilə bağlı Elmlər Akademiyasında keçirilən müzakirədə nitq söyləyib.

### 1995-ci il 3 noyabr

Görkəmli bəstəkar Vasif Adıgözəlovu 60 illik yubileyi münasibətilə təbrik edib. "Xalq mahnılarımızın, muğamlarımızın ruhundan qida alan, ilhamla yaratdığınız musiqinizdə həmişə zamanın nəbzi duyulmuşdur", – deyə təbrikdə qeyd olunmuşdu.

### 1995-ci il 29 noyabr

Böyük Britaniyaya işgüzar səfəri zamanı görkəmli Azərbaycan rəssamı Səttar Bəhlulzadənin əsərlərinin Londondakı "Rassel" hotelində açılmış sərgisində olub.

### 1995-ci il 9 dekabr

Azərbaycan milli teatr sənətinin inkişafında xidmətlərinə görə Səyavuş Aslanın "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb. 60 illik yubileyi münasibətilə Səyavuş Aslana təbrik məktubu göndərib.

### 1995-ci il 15 dekabr

Azərbaycan kinematoqrafçılarının VIII qurultayına təbrik məktubu göndərib.

### 1995-ci il 16 dekabr

Prezident sarayında Respublika Kinematoqrafçılar İttifaqının qurultayında yeni seçilmiş idarə heyətinin üzvlərini qəbul edib. Görüşdə geniş nitq söyləyib.

*"Mən eşidəndə ki, siz mənimlə görüşmək istəyirsiniz, xahiş etdim ki, belə bir görüş təyin olunsun. İndi sizi dinləyirəm və fikirləşirəm, bir var ki, dərdi bilməyəsən, bir də var ki, dərdi biləsən, ona çarə tapa bilməyəsən – bu, çox çətindir... Bizim bir sözümüz var – dərdləşməyin özü də insana təskinlik verir. Ona görə də hesab edirəm ki, görüşməyimiz çox yaxşıdır və mən sizin problemlərinizi daha da yaxından başa düşürəm.*

*Birinci, onu demək istəyirəm ki, bizim kinonun tarixi və əldə etdiyi nailiyyətlər milli sərvətimizdir, mədəni sərvətimizdir və bunu qorumalıyıq...*

*...Məsələn, elə "Arşın mal alan" filmini götürək. Üzeyir Hacıbəyovun "Arşın mal alan" əsəri dahi bir əsərdir, mədəniyyətimizdə çox görkəmli yer tutmuş əsərdir. Ancaq o film çəkilməsə idi dünya "Arşın mal alan"ı da o qədər tanıya bilməzdi, Üzeyir Hacıbəyovu da, Rəşid Behbudovu da o qədər tanıya bilməzdi. Görürsünüz, bir film ilə nə qədər böyük məsələlər həll olundu.*

*Sonrakı dövrdə yaranmış və tariximizi əks etdirən filmlər, məsələn, "Nəsimi", yaxud da "Babək", "Dədə Qorqud", "Nizami" filmləri gözəl filmlərdir... Məsələn, "Dədə Qorqud"un kinoya salınması tariximiz üçün nə qədər böyük hadisədir! Nə üçün? Çünki, gəlin açıq danışaq, elə özümüzün içərisində də çoxları "Dədə Qorqud"u yaxşı bilmirlər. O əsəri oxumaq, – onun dili də çox adam üçün çətindir. Amma kino elə bir vasitədir ki, gedib baxırsan, hər şey aydın olur.*

*Yaxud "Nəsimi" filmini götürün. Nəsimini çoxları tanıyırdı, şeirlərini də bilirdilər. Amma Nəsimini kinoda necə əks etdirdilərsə, insanların qəlbində, hafizəsində Nəsimi o cür qəbul olundu...*

*Şəfiqə xanım (Məmmədova – red.) "Ad günü" filminin adını çəkdi, o film xatirinizdədir. O filmin yaranmasından mənim xəbərim yox idi. Təsadüfən baxdım, gördüm ki, çox dəyərli filmdir. Həmin o "Ad günü" filmi iyirmi il bundan sonra da, otuz il sonra da yaşayacaqdır. O gün televiziya ilə bir verilişə baxırdım, deyəsən, onun davamını göstərirsiniz. Artistləri tanıdım, Hacı İsmayılovu tanıdım... Çox yaxşı artistdir, yaxşı da rol oynayır.*

*Tofiq Tağızadə dedi ki, bir istirahət günü çay içə-içə onun çəkdiyi kinoya baxaq. Mən sizə deyim, 1993-cü ildə buraya gələndən indiyə qədər təəssüf ki, bir saat da istirahət üçün vaxt tapa bilmirəm. O vaxtlar mən burada işləyəndə, düzü, bazar günləri bəzən kinoya, xüsusən yeni filmlərə baxırdım. Amma indi vəziyyət o qədər ağırdır ki, bir gün, bir saat da istirahət yoxdur. Bu o demək deyil ki, mən sizin filmə baxmayacağam. Sizin filminiz məni çox maraqlandırır. İndi mən həmin mövzuya – "Ölülər" mövzusuna gəlirəm. Bəlkə də səhv edirəm, tarixdə olan müəyyən məsələləri bilmirəm, amma hesab edirəm ki, bəşər tarixində "Ölülər" kimi bir mövzuda əsər yaranmayıbdır... Həddindən artıq fəlsəfi bir əsərdir və hesab edirəm, bizim çatışmazlığımız ondan ibarətdir ki, indiyə qədər bu əsəri təbliğ edə, dünyaya tanıtdıra bilməmişik...*

*Görürsünüz, o qədər mövzu var ki, bir-iki saat da danışa bilərik. Amma bilirəm ki, tarix də öz yerində, əsərlər də öz yerində, lakin sizi maraqlandıran əsas məsələ odur ki, bu gün kinematoqrafiya necə yaşamalıdır. Şübhəsiz ki, indi keçmişdəki imkanlarımız yoxdur, bunu bilmək lazımdır. Ona görə də mən sizə söz verim ki, qaldırdığımız məsələlərin hamısını həll edəcəyəm, – bunu deyə bilmərəm. Ancaq təkliflərinizi sonra mənə təqdim edərsiniz, bunların hamısına çox diqqətlə baxarıq və nə qədər mümkündürsə, çalışarıq, o qədər kömək edək.*

*Kinonu, kinematoqrafiyanı, kino sənətimizi yaşatmaq lazımdır. Şübhəsiz ki, bizim kino sənətinin on illərlə yaranmış böyük bir kollektivinin dağılmasına imkan vermək olmaz...*

*İnanıram ki, bu ağır dövrün də ömrü uzun olmayacaqdır... İqtisadiyyatda dəyişikliklər də aparırıq və bütün imkanları axtarıb kinomuzu da saxlamağa çalışacağıq...".*

**Hazırladı: Vüqar Orxan**

*(davamı var)*

Bir ömür sənət

# Bəyaz saçların əhdi

Amerikalı yazıçı Çak Palanik "Gündəlik" romanında "Kədəri unutmaq çətin, sevinci xatırlamaq ondan da çətindir. Xoşbəxtlik çapıq izləri qoymur" yazır.

Bilmirəm niyə, amma mən qəhrəmanımı görüb, tanıdığım ilk gündən onun üzündəki izlərin, dümağ saçlarının arasında bölgü apardım. Elə bil özüm üçün "hansı iz hansı ovqatın izidir" axtarışı edirəm. Amma həm də həyatsevər və nə qədər mübariz olduğunu da bilirəm, bu bəstəboy, zərif, bapbalaca gözlərinin ən dərinliyindəki sevinci ağrılarına rəğmən gün üzünə çıxaran qadının.

Sovqat Səmədova Bakı Uşaq və Gənclər Teatrının ən qocaman, ruhən isə, məncə, ən gənc aktrisasıdır. Bu il 80 yaşını qeyd edir.

Onunla iyulun cırhacırında – Azərbaycan Teatr Xadimləri İttifaqının mövsümün sonu ilə bağlı tədbirində görüşdüm. Yubileyi münasibətilə ittifaq tərəfindən fəxri fərmanla təltif edilmişdi. Təşəkkürünü çoxdan ürəyində qalaqladığı arzu və gileylərinə qatıb az danışıb, çox susan aktrisanı elə orada söhbətə tutdum.

"Ürəyimdə sözüm çoxdur. Şəkililər demiş, a sənin gözuu yeyim. İndi mən haradan başlayım?" deyəndə uğunduq. Onun ləhcəsində "Ha indi elə Şəkidən Bakıya uzanan yoldan" deyəndə cingiltili gülüşü ittifaqın boş zalında əks-səda verdi: "Vay dədə, ta de sabahacan burdayıq ki...".

*– Sovqat xanım, məsələn, Şəkidə yaxşı teatr mühiti var deyə düşünürəm ki, sənətə təsadüfi gəlməmisiniz.*

– Əslində, bizim nəsildə belə sənət adamı olmayıb. Səhnəni sevib, ona bağlandığım gündən hətta məni ölümlə hədələyiblər?

*– Qohumlarınız?*

– Biri elə doğmaca anam Alagöz. Çox ciddi adam idi. Mən uşaqlıqdan güzgünün qabağında çalıb-oynayar, öz-özümə tamaşa göstərərdim. O da hər dəfəsində şəhadət barmağını silkələyə-silkələyə məni hədələyərdi. Deyərdi, bu hoqqabazlığı unut. Beləcə, uşaqlıqdan bu qadağa yolumu kəsdi. Sonra düşünüb-daşınıb müəllim olmaq istədim. Düşündüm ki, dil-ədəbiyyat müəllimi olaram, məktəbdə dərnək yaradıb teatr həvəsimi şagirdlərimlə öldürərəm. Belə arzularla yaşayırdım ki, o da baş tutmadı. Atam dünyasını dəyişdi, anam qəza keçirdi.



14 yaşımdan işləməyə başladım. Anam məni məktəbdən çıxarıb ipək fabrikinə işə qoydu. İnan Allaha, əlim dəzgaha çatmırdı. Yeniyetməlik və ilk gəncliyim ağır oldu. Yəqin elə ona görə də işdə tanış olduğum oğlanla tez də ailə qurdum. Elə bildim hər şey yaxşı olacaq. Amma bu xoşbəxtlik də iki il belə sürmədi.

Yoldaşım rəhmətə getdi, oğlumun qırxı təzəcə çıxmışdı. Anam qardaşımı dalımca göndərdi ki, məni evə gətirsin. Ağır sarsıntılar keçirsəm də anladım ki, belə davam edə bilməz. Necə deyərlər, "öz ixtiyarım öz əlimdədir" deyib cumdum e Şəki mədəniyyət şöbəsinə. Həvəsim barədə orada danışdım, xalq teatrında səhnəyə çıxmaq istədiyimi dedim. Məni başqa bir ştata götürsələr də, xalq teatrında aktrisa kimi işləməyə başladım. Əslində, əllərinə fürsət düşmüşdü. Qadın aktrisa, xüsusən də gənc, demək olar ki, yox idi.

Mədəniyyət evinin direktoru Nazim müəllimə dedim ki, tamaşalarda oynamağı çox istəyirəm, amma həm də qorxuram, anam bilsə öldürər məni. Dedi, heç narahat olma, mən səni Şəkidə səhnəyə çıxarmaram. Qastrollara gedəndə sən oynayarsan, nə vaxt Şəkidə səhnəyə çıxmağa hazır olduğunu desən, onda çıxarsan. Bu minvalla işə başladım. Altı aydan sonra "Namus" pyesini götürdülər və mənə də Şapanik rolunu verdilər ki, öyrən, məşq elə, Qaxda oynayacağıq. Sən demə, aldadırlar, tamaşa Şəkidə olacaqmış. Etiraz eləmək yersiz idi. İlk tamaşaya rayon rəhbərliyi də gəlmişdi. Zal dolu idi. Başladım şövq ilə oynamağa. Birinci katib Sadıx Nəzərli tamaşadan sonra səhnə arxasında bizimlə görüşdü və mənə "Sən bundan sonra xarakterik, yaşlı obrazları oyna" dedi. Hər şey əla alındı.

Amma Şəkidə 3 il heç kim mənə salam vermədi, bütün qohumlar üz döndərdi.

Tədbirlərin birində, komsomol bayramında o vaxt təzə dəbə minən "Ceyranım" mahnısının sədalarında süzürəm e. Zal da ağzınacan dolu. Qapqara hörüklərimi yanıma salıb, təbəssümlə təzim edirdim ki, gördüm anam zalın bir küncündə dayanıb mənə baxır. İlan ayağımın altından yer qaçdı. Anam oradakı heç kimə məhəl qoymadan səhnəyə çıxdı və hörüklərimdən yapışıb məni sürüyə-sürüyə aşağı saldı. Qiyamət qopmazmı? Camaat yığıldı, xeyri olmadı. Yaxşıca tozumu töküb, məni əzişdirdi. Amma mən də dediyimdən dönmədim, səhnədən qopmadım. Elə bil mənə güc gəlmişdi. Ya bu yolda getməliydim, ya da ölməliydim. Ölmədim, amma ölümdən betər oldum...

*– Şəki Dövlət Dram Teatrına gəlişiniz də, yəqin, təsadüfi olmayıb?*

– 1975-ci ildə Şəki Dövlət Dram Teatrı mərhum rejissor Vaqif Abbasovun və direktor Nazim Bilalovun rəhbərliyi ilə bərpa olundu. Mədəniyyət evindən də 22 nəfərdən imtahan götürdülər. Məni 2-ci dərəcə ilə teatra aktyor kimi qəbul elədilər. Məndən başqa 4-5 nəfərdən də imtahan götürüb teatra aktyor kimi təsdiq etdilər. Eyni ildə İncəsənət İnstitutunun bir kursunun məzunları da teatrda işləməyə başladılar. Əməkdar artistlər Qəmər Məmmədova və Gülşad Baxşıyeva da onların içində idi. "Nişanlı qız" tamaşasında Qayınana, "Hacı Qara"da Tükəz, "Komsomol" poemasının tamaşasında Şahsuvarın anası Gülgəz nənəni oynadım. Teatr bərpa olunandan sonra ilk tamaşalar idi. "Komsomol" tamaşasında Bəxtiyarı Hüseynağa Atakişiyev oynayırdı.

Tamaşada Gülgəz nənə oğlunun ölüm xəbərini eşidən səhnədə özümdən iki bənd bayatı dedim. Zaldakılar ağlayırdı. Tamaşadan sonra raykomun 1-ci katibi Sadıq Murtuzayev bizimlə görüşdü. Dedi ki, sən məni ağlatdın. Nə istəyin var de. Əvvəl utandım, sonra kirayədə qaldığımı dedim. Elə orada tapşırıq verdi. Məni evlə təmin elədilər. Artıq hamı məndən danışırdı. Anama da xəbər vermişdilər ki, qızın çox gözəl tamaşa oynayıb. Ondan sonra qohumlar, qonşular arasında hörmətli bir adam oldum. Bu minvalla düz 40 il Şəki teatrında müxtəlif rollarda oynadım. Yaşadıqlarımı oynadığım obrazlarla unutmağa çalışırdım. Moskvaya, SSRİ-nin müxtəlif respublikalarına qastrola, festivala gedirdik, Bolqarıstana, Çexoslovakiyaya getdik. Kubaya da getmişik, Fidel Kastronun qəbulunda olmuşuq. Hüseynağa Atakişiyevin vaxtında olub bütün bunlar. Eh, gözəl günlər idi. Sənət, səhnə məni ovutdu. Ömrümü bir oğluma və sənətə həsr elədim. Düzdü, oğlumun da taleyi mənim kimi ağrılı oldu. Nəvələrimi də mən saxladım. Min şükür, artıq nəticələrim var. Həyatımdan razıyam.

Nəvələrim analarını erkən itirdilər, oğlum ölkədən köçdü. Bütün Şəki əhli bildi ki, mən onları necə yetişdirdim. Bütün əzab-əziyyətimə rəğmən, cəmiyyətə hazır uşaqlar böyütdüm. Düşündüm ki, mən həyatda olmayanda onlar özlərinə baxa bilsinlər. Şükür, həyatım nizama düşdü. Ev-eşiyim, rahat şəraitim var. Buna da nail olmaq üçün Bakıya gələndən işlədim. Çəkilişlər, seriallar, sosial layihələrdə işləməyə başladım. Dayımın qızı məni çalışdığı teatra – Bakı Uşaq Teatrına apardı. Teatrın rəhbəri İntiqam Soltanla tanış elədi. O, məni görən kimi tanıdı və işə götürdü. Beləcə, burada da qaynar həyatım başladı. Təmir bitdi və mən Şəkiyə qayıtdım. Teatrda 65 yaşımdan sonra da müqavilə ilə çalışırdım. Sadəcə, təmirdən sonra Yeni il tamaşası ilə bağlı serial ilə premyera arasında toqquşma yarandı və mən filmin son səhnəsində çəkilmək, söz verdiyim yaradıcı heyəti yarı yolda qoymamaq üçün seçim etməli oldum. Daha doğrusu, teatr rəhbərliyinin əsəbi halda "Olmaz, ya işlə, ya da ərizəni yaz" sözü ilə ərizəmi yazdım və çıxdım.





*– Gəlin bir neçə kəlmə də Şəki teatrını Bakı Uşaq Teatrına dəyişməyinizdən danışaq...*

– Elə deyəndə xətrimə dəyir, mən teatrı heç vaxt dəyişmədim. Sadəcə, 2010-cu ildə teatrımız təmirə dayandı. Deyildi ki, təmir iki il çəkəcək. O vaxt da qız nəvəm tələbə idi, Bakıda oxuyurdu, kirayədə qalırdı. Oğlan nəvəm də əsgərliyə getdi. Qaldımmı tək? Üstəlik də bekar oturmaqla aram yoxdur. Gəldim oğlumun Bakıda aldığı balaca torpağda, necə deyərlər, bir kümə qaraladım, nəvəmlə baş-başa verib yaşamağa başladıq. Beləcə, bir oğlumun iki balasının həyatına əl gəzdirməli idim axı.

*– Bakı Uşaq və Gənclər Teatrında ən qocaman aktrisasınız. Maraqlıdır, balaca tamaşaçılarla ünsiyyətiniz necə alınır?*

– Çox gözəl kollektivimiz var. Bir ailə kimiyik. Mən də həvəslə işləyirəm, irili-xırdalı onlarla rol oynamışam. Əsas rol olsun. Ana toyuğu da, Kəsəyəni də, Toplanı da bacardığım qədər ifadəli oynamağa çalışıram. Xarakterik rollarım da çoxdur. Tamaşaçı hər rolu fərqli görmək istəyir. Yoxsa nə var e, roldur deyib bir xətlə oynamağa. Mən hər roluma belə böyük bir obraz kimi yanaşıram, hamısını sevirəm. Vaxtilə ən böyük arzum "Ögey ana" kinofilmində rəhmətlik Nəsibə Zeynalovanın oynadığı Fatmanisə qarı obrazını canlandırmaq olub... Hə, indi bir arzum da var. Heç olmasa, bir dəfə xoşbəxt qadın rolu oynayım. Səhnədə də olsa o səadəti duyum.

*– Teatra həsr olunan ömür. Necə deyərlər, saçınızı süpürgə edib yaşadığınız bu ömürdə çox sevdiyiniz teatr sizə nə verdi?*

– Həyat. Yaşayışıma kömək oldu, ömrümü uzatdı, arxam-dayağım oldu, ailəm, ev-eşiyim oldu. Düz 51 ildir fasiləsiz səhnədəyəm.

Sovqat xanım bu sözləri elə ucadan, elə emosional və həyəcana qarışan göz yaşı ilə söylədi ki, bir anlıq "Görəsən, sənətə bu cür bağlı insanlara lazımınca dəyər-qiymət verilirmi" sualının təsirinə düşdüm. O isə sanki bunu duyubmuş kimi dedi:

– Məni yaşadan sənətimdi. Sulutəpədən üç nəqliyyat dəyişib hər gün Qaraçuxura gedirəm. Günümün 3-4 saatı yolda keçir. Amma o teatra bir gün getməsəm, elə bilərəm dünyada tək qalmışam. Təki səhnədə olub, onun tozunu udum. Çünki mən səhnəni sevirəm. O məni sevsə də, sevməsə də. Amma həm də inanmıram ki, sevməyə. Yoxsa, məni qoynunda bəsləməzdi. Eh, ay qızım, həyatdır, taledir, yazıdır...

Sonra ayağa qalxdı, dağılmış ağ saçlarına sığal verib masaya yaxınlaşdı. Ona bağışlanan kiçik gül dəstəsi və fəxri fərmanını bağrına basıb qapıya tərəf döndü. Sonra nə fikirləşdisə iti addımlarla geri qayıdaraq diktofonu yenidən işə salmağımı gözlədi. Muncuq kimi gözlərini üzümə dikdi: "Bir zarafat edim, gül, bayaqdan qanını qaraltdım. Deyirsən, teatr sənə nə verdi. Nə verəcək? Gördüyün bu qalaq-qalaq fəxri fərmanları. Mənim fəxri adım olmasa da, bolluca fəxri fərmanım var. Əşi, canları sağ olsun, əsas odur ki, mən sənətimlə fəxr edirəm" deyib təzim edirmiş kimi müsahibə səhnəsindən "endi".

**Həmidə Nizamiqızı**



# Pir Hüseyn xanəgahı: tarixdən günümüzə

Azərbaycan coğrafiyasında İslam dininin yayılmasında sufilərin böyük xidmətləri olmuşdur. Onların xoşməramlı İslam anlayışları insanların könlünə təsir etmiş və bu dinin qəbulunu sürətləndirmişdir.

Sufilik Şərqdə X-XII əsrlərdə artıq ideya cərəyanlarından biri kimi formalaşmışdır. X əsrin sonlarından etibarən sufi icmaları təşkil olunub geniş yayılmağa başlamışdır. Ayrı-ayrı şeyxlər öz ətrafında çoxlu müridlər toplayır, onlar üçün tərtib etdikləri ciddi adətlər üzrə gələcək davamçılarını hazırlayırdılar. Bu hazırlıq prosesi zaviyə, dərgah, təkyə, xanəkə, xanəgah deyilən yerlərdə baş verirdi.

Səyyah İbn Cəbirin məlumatından və sair mənbələrdən də məlum olur ki, XI əsrin ikinci yarısında İslam ölkələrində mədrəsələrin, xanəgahların təşkili və sayı sürətlə artmışdır. Bununla əlaqədar, ali təhsil imkanları da genişlənmişdir. Bu vəziyyət, ümumiyyətlə, Yaxın və Orta Şərqdə, eləcə də Azərbaycanda məktəb şəbəkəsinin genişlənməsinə müsbət təsir göstərmişdir. O dövrdə Azərbaycanda bir çox xanəgahların mövcud olduğu məlumdur ki, onların da əksəriyyətini tədris ocaqları kimi qiymətləndirməyə əsas var. Çünki vaxtilə xanəgahlarda da tədris təşkil edilmişdir.

Əbu Nəsr Şirvani tərəfindən Şamaxıda təşkil edilmiş xanəgahla əlaqədar Məhəmməd ibn Münəvvərin "Əsrar əl-touhid" əsərində verilən bir məlumatdan aydın olur ki, həmin dövrdə Şirvanda 400-dən çox xanəgah fəaliyyət göstərmişdir. Bu xanəgahlardan biri də Pir Hüseyn xanəgahıdır. Pir Hüseyn xanəgahı Azərbaycan memarlıq nümunələri arasında seçilən qədim tikililərdəndir. Ümumilikdə, xanəgahlar ölkənin mədəni, iqtisadi-siyasi münasibətlərində mühüm rol oynadığı üçün daha çox karvan yolları üzərində inşa olunurdu. Xanəgahlar dini mərasimlərin tələblərinə uyğun binaların birləşməsindən ibarət olmuşdur. Kompleksə ibadət və ayinlərin icrası üçün tikililər, camaatxana (yəni ümumi məsələlərin müzakirə olunduğu yer), təsərrüfat üçün lazım olan tikililər və s. daxil idi.

Ölkə əhəmiyyətli XI-XIV əsrlərin yadigarı olan Pir Hüseyn xanəgahı özündə bir çox cavabları gizləyən tarixi abidələrimizdən biridir. Bir çox alimlərin marağına səbəb olmuş tarixi abidə Bakı-Salyan karvan-ticarət yolunun üzərində, Hacıqabul rayonunun Qubalı Baloğlan kəndi ərazisində, Pirsaat çayının şərq sahilində yerləşir. Onun xanəgahlar arasında fərqli yer tutmasının səbəbi memarlıq üslubunun mükəmməlliyidir.

Əsl adı Əl-Hüseyn ibn Əli olan Pir Hüseyn Şirvani 954-cü ildə Şirvanda dünyaya göz açmışdır. O daha çox "Pir Hüseyn" adı ilə tanınmışdır. Rus şərqşünası Vera Kraçkovskaya (1884-1974) onun İranın İstəxr şəhərinin Rəvan kəndindən olduğunu göstərsə də, eyni zamanda kaşı parçalarının kitabələrini yazan xəttatların xeyli səhv buraxdıqlarını, hətta Quran ayələrini belə səhv köçürdüklərini üzə çıxarmışdır. Ərəb qrafikası ilə yazılmış "Şirvanan" sözündə "Şin" hərfini yazmadıqlarına, (digər bir mülahizə isə sonradan "Şin" hərfi qopduğuna) görə "Rəvanan" sözü alınmışdır. XIII əsr İran tarixçisi Həmdullah Qəzvininin Pir Hüseyni "Şirvanan" kimi qeyd etməsi onun məhz İrandan deyil, Şirvandan olduğunu sübut edir. Bunu əsaslandıran səbəblərdən biri də Pir Hüseynin həyat və fəaliyyətinin, abidəsinin Şirvan ərazisində yerləşməsidir.

Pir Hüseyn Şirvani öz təhsilini Xorasanda fəaliyyət göstərən Əbu Səid Əbu Xeyirdən almışdır. O, dövrünün görkəmli şəxsiyyəti, sufilikdə 3-cü dərəcəyə (Salik əl-Məsalik) çatmış, ruhani işləri ilə məşğul olmuş, imam ləqəbi almış, Azərbaycan elmi-fəlsəfi fikir tarixində, İslami-fəlsəfi dünyagörüşünün formalaşmasında böyük xidmətləri olmuş bir mütəfəkkirdir. Tarixi mənbələrdə qeyd olunduğuna görə, o, Şirvan şahlarından I Mənüçöhr ibn Yəzdin, Əbu Nəsr Əli ibn Yəzdin, Qubad ibn Yəzdin, Buxt Nəssar Əli ibn Əhmədin vəziri olmuşdur. Sonuncu şahın hakimiyyət dövrü az olduğundan, ola bilsin ki, o həm də Sallar ibn Yəzdinin dövründə vəzirlik etmişdir. Pir Hüseyn 1072-ci ildə (bəzi mənbələrdə 1074-1075-ci illər) vəfat etmişdir.

Pir Hüseyn Şirvaninin həyat və fəaliyyəti haqqında geniş məlumat yoxdur. Xanəgah haqqında isə abidənin kitabələri və xalqın rəvayətlərindən başqa bir neçə tarixçinin qeydləri vardır. Həmin qeydlərin birində tarixçi Həmdullah Qəzvini yazırdı ki, Pir Hüseyn xanəgahının yüzlərlə müridi vardır. Xanəgaha məxsus vəqf torpaqlarında ona xidmət edən dərvişlər və işçilər (kişilər və qadınlar) yaşayırdı. Müridlər və dərvişlər barədə xanəgahın minarəsində də kiçik bir kitabə vardır ki, həmin kitabədə "Bura dərvişlər və müridlər məskənidir" qeydi var.

Dərvişlər və dərvişlik missiyası da təsəvvüfdə xüsusi yer tutur. "Dərviş" farsca "qapı-qapı dolaşan", "dilənçi" mənalarını verir. Sözün ərəbcə qarşılığı kimi "fəqir" anlamından istifadə edilir. Daha çox səyyari həyat keçirən, miskin yaşayış tərzinə malik bu həqiqət aşiqləri zahiri ibadətləri yox, batini etiqadı üstün tuturlar. Qəlbini ilahinin nuru ilə işıqlandıran və fənaya uğrayan həyat və axirətdən keçən dərvişlər çox zaman gəzəri şəkildə təriqət ideyalarının təbliği ilə də məşğul olurlar.

Beləliklə, demək olar ki, Azərbaycanın, xüsusən də Şirvan bölgəsinin ictimai-tarixi və ədəbi-mədəni mühitinin formalaşmasında əhəmiyyətli dərəcədə rol oynamış şəxsiyyətin – Pir Hüseyn Şirvani və müridlərinin Azərbaycanda İslam dininin yayılmasında, möhkəmlənməsində özünəməxsus yeri olmuşdur.

Məlum olduğu kimi, ölkəmizin maddi-mədəni zənginlikləri tarixən bədnam qonşuların maraq dairəsində olmuşdur. XIX əsrin əvvəllərindən etibarən tarixi Azərbaycan torpaqlarına köçürülən ermənilər tarix mədəniyyət abidələrimizi dağıtmaq, talan etmək və mənimsəmək yolunu seçmişlər.

Erməni vandalizmindən zərər görən abidələrimizdən biri də Pir Hüseyn xanəgahıdır. 1907-ci ildə Tiflisdə Qafqazşünaslıq İnstitutunun elmi katibi Ter-Avetisyan xanəgahda işə başlamışdır. O, xanəgahda olan zaman buradakı kaşı bəzəklərinin kitabələrini bərpa edib oxumuşdur. V.Kraçkovskayanın yazdığına görə, Ter-Avetisyanın xanəgahda işə başlamasından sonra, xanəgah kaşıları yoxa çıxmışdır.

1913-cü ildə Parisdə yaşayan dəllal Dikran Kələkyan və Madam Duffanti xanəgaha gəlmiş, xanəgahın qalan kaşı parçalarını qopardaraq Parisdə hərracda satmışlar.

Pir Hüseyn xanəgahına ən böyük dağıdıcı zərbəni erməni quldur dəstəsi 1918-ci ildə vurmuşdur. Rus alimi V.Sisoyev 1925-ci ildə nəşr etdirdiyi məqaləsində bildirmişdir ki, xanəgah kaşı parçalarının çox hissəsi 1918-ci ildə bu kompleksi zəbt etmiş erməni hərbçiləri sındıraraq buranı xarabalığa çevirmişlər. Xanəgahı bəzəmiş kaşı parçalarının daşınma prosesi sovet dövründə başa çatdırılmışdır. 1925-ci ildə xanəgahın 11 metrlik kaşı bəzəkləri qopardılaraq Sankt-Peterburqdakı Dövlət Ermitaj Muzeyinə aparılmışdır. Hazırda Ermitajda xanəgahın yağmalanmış 123 çilçıraqlı ulduz, 325 firuzəyi xaç və başqa kaşı parçaları saxlanılır. 1936-cı ilin oktyabrına olan məlumata əsasən, xanəgahda 3 kaşı parçasının qaldığı bildirilir. Bu parçalar mehrabla birlikdə 1940-cı ildə Nizami adına Ədəbiyyat Muzeyinə aparılaraq orada divara quraşdırılmışdır. Bu gün Pir Hüseyn xanəgahında ümumilikdə 15 kaşı parçası mövcuddur.

Hazırda xanəgahın talanmış nümunələri Ermitajla yanaşı, Moskva Şərq Xalqları İncəsənəti Muzeyi, Gürcüstan Dövlət Muzeyi, Luvr və London muzeylərində saxlanılır.

Dəfələrlə xanəgaha vurduqları zərərlə kifayətlənməyən ermənilər 1957-ci ildə SSRİ Meliorasiya Nazirliyi tərəfindən 2 km aralıda tikiləcək su anbarını Akopyanın layihəsi və təklifi ilə xanəgahın arxa hissəsində tikilməsini qərara almışlar. Düşmənin məqsədi həmin ərazidəki olan qədim yaşayış məskənindəki sənət nümunələrini, mumiyalanmış meyitləri məhv etmək idi. Nəhayət, onlar öz bəd niyyətlərinə çatırlar. 1959-cu ilin 6 aprel tarixində sel sularının çoxalması nəticəsində bənd partlamış və xanəgahdan yan keçərək ətraf kəndləri su altında qoymuşdur.

Müxtəlif vaxtlarda Pir Hüseyn xanəgahında təmir-bərpa, tədqiqat işləri aparılsa da, bunlar keyfiyyətsiz və yarımçıq həyata keçirilmişdir.

Xanəgah həm təmir-bərpa, həm də tədqiqat baxımından layiqli qiymətini müstəqillik dövründə almışdır. Azərbaycan alimi, tarixçi-epiqrafçı və şərqşünas, AMEA-nın müxbir üzvü Məşədixanım Nemətova burada dərin araşdırma aparmışdır.

Nadir memarlıq incisi olan Pir Hüseyn xanəgahı Mədəniyyət Nazirliyinin 22 yanvar 2004-cü il 19 nömrəli əmri ilə ölkə əhəmiyyətli tarixi abidə kimi qeydiyyata alınmışdır. Bundan sonra abidədə təmir-bərpa işlərinə başlanılmışdır. Aparılmış təmir-bərpadan sonra 2007-ci il oktyabrın 1-də açılış mərasimi olmuşdur.

Bu gün Pir Hüseyn xanəgahı ölkəmizdən və xaricdən çoxsaylı ziyarətçiləri qəbul edir. Qonaqlara kompleksin tarixi haqqında ətraflı məlumat verilir.

**Məhərrəm Müslümov**
**"Pir Hüseyn Xanəgahı" Tarix-Memarlıq Qoruğunun direktoru**

# Bakı Beynəlxalq Memarlıq Müsabiqəsi altıncı dəfə keçiriləcək

## 29 ölkədən 200-dən çox layihə təqdim olunub

Azərbaycan Memarlar İttifaqı və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 4-6 oktyabr tarixlərində VI Bakı Beynəlxalq Memarlıq Müsabiqəsinin keçirilməsi nəzərdə tutulur. Azərbaycan Memarlar İttifaqından bildirilib ki, Beynəlxalq Memarlar İttifaqının dəstəyi ilə keçirilən ənənəvi müsabiqə bu il Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunub.

Müsabiqə 7 nominasiya üzrə keçirilir:

İctimai binaların memarlığı sahəsində həyata keçirilmiş ən yaxşı layihə;

Yaşayış binalarının memarlığı sahəsində həyata keçirilmiş ən yaxşı layihə;

Həyata keçirilmiş ən yaxşı interyer;

Həyata keçirilməmiş ən yaxşı layihə;

Landşaft memarlığı sahəsində həyata keçirilmiş ən yaxşı layihə;

Binaların bərpası və yenidən qurulması sahəsində həyata keçirilmiş ən yaxşı layihə;

Memarlıq sahəsində ən yaxşı nəşr.

Oktyabrın 4-də Beynəlxalq Muğam Mərkəzində müsabiqəyə təqdim olunan işlərin sərgisinin açılışı və mətbuat konfransı keçiriləcək. Münsiflər heyətinin iclası 4-5 oktyabrda olacaq, qaliblərin elan olunması mərasimi isə 6 oktyabr tarixinə nəzərdə tutulub.

VI Bakı Beynəlxalq Memarlıq Müsabiqəsinin münsiflər heyətinin tərkibi: Deniz İncedayı (Türkiyə), Kevin Bingham (Cənubi Afrika Respublikası), Divya Kush (Hindistan), Giuseppe Cappochin (İtaliya), Léo Orellana (Çili), Elbay Qasımzadə (Azərbaycan).

Müsabiqəyə daxil olan layihələrin coğrafiyası dünyanın bütün qitələrində getdikcə daha çox ölkəni əhatə edir. Altıncı müsabiqəyə 29 ölkənin memarları tərəfindən 200-dən çox layihə təqdim olunub.

Bakı Beynəlxalq Memarlıq Müsabiqəsinin əsası 2013-cü ildə qoyulub. Müsabiqə iki ildən bir keçirilir. Ötən beş müsabiqədə dünyanın 53 ölkəsindən memarlar 1000-dən çox layihə ilə iştirak ediblər. Bu müsabiqələrdə Portuqaliya, Fransa, ABŞ, Sloveniya, Gürcüstan, Yaponiya, Rusiya, Mərakeş, Xorvatiya, İtaliya, Banqladeş, İspaniya, Ukrayna, Almaniya, Vyetnam, Sinqapur, Qırğızıstan, Yunanıstan, Malayziya, Cənubi Afrika, Misir, Çin, İran, Keniya, Birləşmiş Ərəb Əmirlikləri, Meksika, Rumıniya, Polşa, Hindistan və Azərbaycandan memarlar qalib olublar.

Muxtar Dadaşov – 110

# Milli kinomuzun parlaq imzalarından...



125 yaşlı Azərbaycan kinosunun inkişafında mühüm rol oynamış sənətkarlarımızdan biri də görkəmli operator, rejissor, Xalq artisti Muxtar Dadaşovdur. Bu, görkəmli kino xadiminin anadan olmasının 110 illiyidir.

Muxtar Baba oğlu Dadaşov 11 sentyabr 1913-cü ildə Bakıda dünyaya göz açıb. İlk gənclik çağlarından səhnə sənətinə maraq göstərib. Ancaq sonralar kino sahəsi onu daha çox cəlb etməyə başlayır.

O, bu barədə xatirələrində yazır: “Kinoya məhəbbətim o qədər güclü idi ki, teatrdan ayrılaraq həmişəlik kino sənətinə bağlandım. 18 yaşımda əvvəlcə operator Fyodr Novitskinin şagirdi, sonra operator Boris Pumpyanskinin assistenti oldum. “Lökbatan”, “Neft simfoniyası”, “Köçərilər” filmlərinin çəkilişlərində iştirak etdim. “Elə çək ki, elə bil sonuncu işindir” deyən dahi Eyzenşteynin sözlərini unutmadım. Sonra Moskvada, “Mejrabpomfilm” studiyasında böyük təcrübə keçdim...”.

Muxtar Dadaşov 1933-cü ildə ali operator təhsili almaq məqsədilə Moskvaya gedir. Bir sıra filmlərin çəkilişində iştirak edir. Təhsilini başa vurduqdan sonra böyük ümidlərlə vətənə dönür, kinostudiyada operator işini davam etdirir. 1935-ci ildə “Rəqs edən bağalar” bədii filminin (Abdulla Şaiqin “Oyunçu bağa” hekayəsi əsasında) quruluşçu operatoru olur.

Araşdırmalarda qeyd edilir ki, dövrün mühüm ictimai-siyasi hadisələri onun lentə aldığı sənədli filmlərin əsas mövzusunu təşkil edir. “Sovet Azərbaycanı”, “Ana yurdum Azərbaycan”, “Sovet Azərbaycanının 50 illiyi”, “Arazın o tayında”, “Sabir”, “Kür”, “Səadət yolu ilə” və s. filmlərdə vətənin əsrarəngiz təbiəti, tarixi şəxsiyyətləri kino dili ilə tərənnüm olunur.

M.Dadaşov 1939-cu ildə “Samur-Dəvəçi kanalı” kinooçerkini çəkir. Xalq şairləri Səməd Vurğunla Rəsul Rzanı da lentə alır. Su kanalının çəkilişində iştirak edən ləzgi qızına şeir qoşur. “A ləzgi qızı” adlı şeir mətbuatda dərc olunur:

*Gözəl, ləzgi qızı, sən dinlə məni,*
*İlhama gəlmişəm səni görəni.*
*Coşqun Samur çayı, odlar vətəni,*
*Dinləsin tərifin, a ləzgi qızı...*

M.Dadaşov bədii kinoda uğurlu addımlarından birini 1945-ci ildə çəkilən “Arşın mal alan” filmində operator köməkçisi kimi atıb. Filmdə Gülçöhrə obrazını canlandıran Xalq artisti Leyla Bədirbəyli ekran işinin lentə alınması prosesindən danışarkən M.Dadaşovu aktyorun daxili aləminə nüfuz etməyi bacaran sənətkar kimi xarakterizə etmişdi.

“Kəndlilər”, “Yeni horizont”, “Vətən oğlu”, “Sualtı qayıq T-9” bədii filmləri də onun operator kamerası vasitəsilə həyata vəsiqə alıb.

Quruluşçu rejissor kimi debütü isə “Qanun naminə” bədii filmi olur. Xalq yazıçısı Süleyman Rəhimovun “Mehman“ povesti əsasında çəkdiyi filmin ssenarisini də özü yazır. Filmdə baş rola kənardan aktyor (Şimali Osetiyadan Bimbulat Vatayev) dəvət olunsa da, ekran əsərində bir çox görkəmli sənətkarlarımız Adil İsgəndərov, Rza Təhmasib, Mustafa Mərdanov, Nəcibə Məlikova, Nəsibə Zeynalova, Hacıbaba Bağırov rol alıb. Filmi ekranlara çıxandan sonra povestin müəllifi Süleyman Rəhimov yazırdı: “M.Dadaşov “Mehman” povestini sənətkarlıqla, məharətlə ekranlaşdırmış, mənə intəhasız fərəh bəxş etmişdir”.

M.Dadaşovun “Bakıda küləklər əsir” filmi müharibə mövzusunda çəkilən dəyərli ekran əsərlərindəndir. O, müharibə mövzusunda hələ 1943-cü ildə “Bakı döyüşür” adlı sənədli film çəkmişdi. Maraqlıdır ki, müharibənin gedişi vaxtı S.Vurğunu, Ü.Hacıbəylini, kimyaçı alim Y.Məmmədəliyevi, neftçilərdən G.Əliyevi, A.Nemətullanı, R.Rüstəmovu və başqalarını bu filmdə lentə almışdı. O, sonradan bu filmi genişləndirərək “Bakı-42” adı ilə çəkir. Ancaq istedadlı rejissor fantaziyasını bu filmdə də yekunlaşdırmır. Nəhayət, 1974-cü ildə “Bakıda küləklər əsir” bədii filmini çəkərək istəyinə nail olur. Filmdə xalqımızın müharibə illərində arxa və ön cəbhədə göstərdiyi hünəri, casusların ifşa edilməsində qəhrəman çekistlərin ayıq-sayıqlığını, onların çox cəsarətli əməliyyatları nəticəsində Bakının neft mədənlərinin partladılmasının qarşısının alınmasını ustalıqla əks etdirir.

“Əbədi qardaşlıq” tammetrajlı sənədli filmi də nadir kadrlarla zəngindir. Bu filmdə cəbhə dostları – azərbaycanlı Məmmədovla ukraynalı qadın Xovanskayanın 20 ildən sonra Lvovda, sonra isə Füzuli rayonunun Horadiz kəndindəki görüşləri tamaşaçı tərəfindən maraqla izlənilir.

Onun S.Bədəlovla birgə operator kimi çalışdığı “Arazın o tayında” sənədli filmində II Dünya müharibəsi illərində İran Azərbaycanındakı mövcud vəziyyət, 40-cı illərin ikinci yarısından sonra baş verən siyasi hadisələr, tarixə çevrilmiş anlar öz əksini tapır. Müharibənin ilk günlərindən M. Dadaşov neft mədənləri, zavod və fabrikləri gəzir, gecəni gündüzə qataraq əmək adamlarının içində olur. Ön cəbhəni neft və başqa məhsullarla təmin edən şəhərin havadan və dənizdən qəhrəmancasına müdafiə olunmasını lentə alır.

O həm də araşdırıcı rejissor kimi tanınıb. Çəkdiyi tarixi filmlər üçün zəngin material toplayıb, sonra onları lentə alır. “Nəriman Nərimanov” sənədli filminin (1966) çəkilişi zamanı da belə olub. Nərimanovun Genuya konfransındakı çıxışını əks etdirən kadrları Moskva arxivlərində tapır. Sonra həmin kadrları filmdə canlandırır.

M.Dadaşov müxtəlif illərdə görkəmli dövlət və mədəniyyət xadimlərinin kinoportretini yaradıb. Ulu öndər Heydər Əliyev, Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov, Bülbül, Səməd Vurğun, neftçi Qurban və başqaları onun qəhrəmanları olub.

M.Dadaşovun yaradıcılığı Azərbaycan kinosunun 50 ildən artıq bir dövrünü əhatə edir. Lentə aldığı ekran əsərləri bir sıra ölkələrdə göstərilib. Onun “Səadət yolu ilə” filmi Moskvada Ümumittifaq festivalında qızıl medal, “Nəriman Nərimanov” filmi Tiflis festivalında xüsusi mükafat qazanıb. 1977–1983-cü illərdə “Azərbaycanfilm” kinostudiyasında Sənədli filmlər birliyinin bədii rəhbəri olan sənətkarın əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. “Əməkdar incəsənət xadimi” (1960), “Xalq artisti” (1976) fəxri adlarına, Dövlət mükafatına (1980) və müstəqil Azərbaycanın “Şöhrət” ordeninə layiq görülüb.

Azərbaycan kinematoqrafiyasının inkişafına mühüm töhfələr verən Muxtar Dadaşov 7 may 1998-ci ildə, 85 yaşında vəfat edib.







**Savalan Fərəcov**

# “Göy qurşağı” jurnalın yeni sayında

Respublika Uşaq Kitabxanasının təsis etdiyi “Göy qurşağı” jurnalının 79-cu buraxılışı işıq üzü görüb. 32 səhifəlik jurnalda 10 rubrikada yazılar, yeddi hekayə, maraqlı mövzuları əhatə edən məlumatlar yer alıb.




“Nağıllara səyahət” rubrikasında Astrid Lindqrenin “Damda yaşayan Karlson”, Şebnem Güler Karacanın “Yatağan koala və evkalipt ağacı”, Şəlalə Əmrahovanın “Ayı daşı” və başqa hekayələr dərc olunub.

“Yeni kitablar bizim rəflərimizdə” rubrikasında uşaqların bilməsi mühüm olan anlayışlar, məntiqi tapşırıqlar, diqqət və yaddaşı inkişaf etdirmək üçün rəngli, şəkilli kitabların annotasiyaları verilib.

Jurnalda həmçinin uşaqların intellektual və yaradıcı inkişafına təkan verən krossvord, onların mütaliəyə, maarifləndirici yarışlara marağının artırılması üçün suallar da yer alıb.

# “Təsəvvüf Azərbaycan ədəbiyyatı kontekstində”

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Türk xalqları ədəbiyyatı şöbəsinin baş elmi işçisi Xuraman Hümmətovanın “Təsəvvüf Azərbaycan ədəbiyyatı kontekstində” kitabı çapdan çıxıb.

Nəşrin elmi redaktoru professor İmamverdi Həmidov, rəyçiləri professor Məmməd Əliyev və filologiya üzrə fəlsəfə doktoru Zəhra Allahverdiyevadır.

Kitabda ayrı-ayrı sənətkarların yaradıcılığında təsəvvüf probleminin inkişaf dinamikası araşdırılıb. Bu inkişaf öz başlanğıcını xalq yaradıcılığından alaraq xalq sufizminin formalaşmasında özünü doğruldub. Sonradan bu inkişaf yazılı poeziyada ədəbi təsəvvüfün yaranmasında baza rolunu oynayıb.

Araşdırmada klassik poeziyanın əsas strukturunu təşkil edən ezoterik bilgilərin Azərbaycan şeirində aparıcı rol oynaması diqqət mərkəzinə çəkilərək ona aydınlıq gətirilib. Təsəvvüfün klassik Azərbaycan ədəbiyyatında mütərəqqi ideya və motivlər üçün əsas fikir qaynağı olması vurğulanıb.

## Xatirə təqvimi — 8–12 sentyabr

### Azərbaycan

**8 sentyabr 1903** – Əməkdar artist Dadaş Kamil oğlu Şaraplı (Məmmədov; 1903-1959) Bakıda doğulub. Akademik Dram Teatrının aktyoru olub.

**8 sentyabr 1906** – Xalq artisti Yelena Vladimirovna Taryeva (1906-1962) Odessada doğulub. Azərbaycan Dövlət Rus Dram Teatrının aktrisası (1938-ci ildən) olub.

**8 sentyabr 1949** – Əməkdar incəsənət xadimi Hüseynağa Ağahüseyn oğlu Atakişiyev (1949 – 9.4.2006) Bakıda anadan olub. Şəki Dövlət, Akademik Milli Dram teatrlarında baş rejissor işləyib. 1989-cu ildə Gənclər Teatrını (2009-cu ildə Gənc Tamaşaçılar Teatrına birləşdirilib) yaradıb. “Üzeyir ömrü” (1981) filmində çəkilib.

**8 sentyabr 1982** – Xalq artisti, teatr rejissoru Ələsgər Məmmədtağı oğlu Şərifov (25.12.1909 – 1982) vəfat edib. Akademik Milli Dram Teatrında çalışıb, “Səbuhi” filmində M.Ş.Vazeh rolunda çəkilib.

**8 sentyabr 2015** – Xalq artisti, tanınmış kamança ifaçısı Habil Mustafa oğlu Əliyev (28.5.1927 – 2015) vəfat edib. Azərbaycan Dövlət Filarmoniyasının solisti olub. Filmlərdə musiqiləri ifa edib.

**9 sentyabr 1937** – Əməkdar mədəniyyət işçisi Aybəniz Səməd qızı Vəkilova (1937 – 13.6.2009) anadan olub. Səməd Vurğunun Ev-Muzeyinin baş mühafizi və direktoru işləyib.

**9 sentyabr 1939** – Xalq artisti İrina Aleksandrovna Perlova (1939 – 14.9.2010) anadan olub. Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında (rus bölməsi) quruluşçu rejissor işləyib.

**9 sentyabr 1991** – Dünya şöhrətli xalçaçı alim, dekorativ sənət ustası, Xalq rəssamı Lətif Hüseyn oğlu Kərimov (1906 – 9.9.1991) vəfat edib. “Azərbaycan xalçalarında ornament”, “Azərbaycan xalçası” çoxcildliyi və s. kitabların müəllifidir. L.Kərimovun təşəbbüsü ilə Bakıda Xalça Muzeyi təşkil olunub.

**9 sentyabr 2014** – Xalq artisti İbrahim Əhməd oğlu Məmmədov (Bənəniyarlı; 22.12.1934 – 2014) vəfat edib. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru olub.

**9 sentyabr 2022** – Əməkdar incəsənət xadimi, bəstəkar Ruhəngiz Nağı qızı Qasımova (12.7.1940 –.2022) vəfat edib. Teatr və televiziya tamaşalarına, filmlərə musiqilər yazıb, populyar mahnıların müəllifidir.

**10 sentyabr 1901** – Əməkdar artist, vokalçı Qulam Məşədi Kazım oğlu İsgəndərov (1901-1975) Şamaxıda doğulub. Opera və Balet Teatrında çalışıb.

**10 sentyabr 1917** – Xalq artisti Firuzə Məmmədqulu qızı Əlixanova (1917 – 24.11.1994) Naxçıvan MR Ordubad rayonunda doğulub. Naxçıvan Dövlət Musiqili Dram Teatrında çalışıb, teatrın ilk aktrisalarından biri olub.

**10 sentyabr 1931** – Xalq artisti, tanınmış vokal ifaçısı, aktyor Mobil Salman oğlu Əhmədov (1931 – 3.6.2006) Gəncədə doğulub. 40 ilə yaxın Musiqili Komediya Teatrında çalışıb, tamaşalarda əsas rolları ifa edib.

**10 sentyabr 1935** – Şərqşünas, ədəbiyyatşünas Maqsud İbrahim oğlu Hacıyev (1935 – 2.3.2023) Quba rayonunun Gümür kəndində anadan olub. İran, əfqan ədəbiyyatına dair tədqiqatların müəllifi, tat və fars dilləri ilə bağlı lüğətlərin tərtibçisidir.

**10 sentyabr 2015** – Əməkdar rəssam Altay Ağasəid oğlu Səidov (1926 – 10.9.2015) vəfat edib. Gənc Tamaşaçılar Teatrında baş rəssam işləyib.

**11 sentyabr 1913** – Xalq artisti, kinorejissor Muxtar Baba oğlu Dadaşov (1913 – 7.5.1998) anadan olub. “Qanun naminə”, “Bakıda küləklər əsir” və s. filmlərə quruluş verib. Sənədli və bədii filmlərin operatoru olub.

**11 sentyabr 2001** – Xalq artisti Məmməd Allahverdi oğlu Quliyev (15.3.1914 – 2001) vəfat edib. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru olub.

**12 sentyabr 1887** – Görkəmli yazıçı Yusif Vəzir Çəmənzəminli (1887 – 3.1.1943) Şuşada doğulub. Azərbaycan Xalq Cümhuriyyətinin İstanbulda səfiri olub, sonra mühacirətdə yaşayıb, 1926-cı ildə Azərbaycana qayıdıb. 1940-cı ildə həbs olunub, Rusiyanın Nijni Novqorod vilayətində həbs düşərgəsində vəfat edib. “İki od arasında” (“Qan içində”) tarixi romanının, “Qızlar bulağı”, “Bir cavanın dəftəri” və s. əsərlərin müəllifidir.

**12 sentyabr 1921** – Şair, dramaturq Novruz Gəncəli (Novruz İsmayıl oğlu Sadıqov; 1921 – 19.10.1995) anadan olub. C.Bayronun şeirlərini, B.Brextin “Kuraj ana və onun uşaqları” pyesini Azərbaycan dilinə çevirib.

**12 sentyabr 1960** – Əməkdar artist Süleyman Məşədi İsmayıl oğlu Tağızadə (13.4.1909 – 1960) vəfat edib. Akademik Milli Dram Teatrının aktyoru olub, filmlərə çəkilib.

**12 sentyabr 2001** – Yazıçı, tərcüməçi Manaf Fərəc oğlu Süleymanov (3.3.1912 – 2001) vəfat edib. Köhnə Bakı haqqında “Eşitdiklərim, oxuduqlarım və gördüklərim” adlı tarixi-ensiklopedik kitabın, “Dalğalar qoynunda”, “Fırtına”, “Zirvələr”, “Yerin sirri” və s. romanların müəllifidir.

**12 sentyabr 2004** – Əməkdar mədəniyyət işçisi Turan Cavid (Turan Hüseyn Cavid qızı Rasizadə; 2.10.1923 – 2004) vəfat edib. C.Cabbarlı adına Dövlət Teatr Muzeyinin, H.Cavidin Bakıdakı ev-muzeyinin direktoru işləyib.

### Dünya

**8 sentyabr 1830** – Fransız şairi, ədəbiyyat üzrə Nobel mükafatı (1904) laureatı Frederik Mistral (Frederic Mistral; 1830-1914) anadan olub. Kitabları: “Mireyo”, “Qızıl adalar”, “Zeytun yığımı”.

**8 sentyabr 1841** – Çex bəstəkarı Antonin Leopold Dvorjak (1841-1904) anadan olub. 10 opera (“Su pərisi”, “Armida” və s.), 9 simfoniya, 5 simfonik poema və başqa əsərlərin müəllifidir.

**8 sentyabr 1923** – Dağıstanın Xalq şairi Rəsul Həmzətov (1923 – 3.11.2003) anadan olub. Milliyətcə avardır. Kitabları: “Dostları qoruyun”, “Mənim Dağıstanım” və s. Şeirlərinə populyar mahnılar bəstələnib. Sosialist Əməyi Qəhrəmanı adına, Lenin mükafatına layiq görülüb.

**8 sentyabr 1937** – Türk kinoaktyoru Cüneyt Arkın (əsl adı Fahrettin Cüreklibatur; 1937 – 28.6.2022) anadan olub. 300-dək filmdə çəkilib.

**9 sentyabr 1583** – İtalyan bəstəkarı, fuqa musiqi alətinin yaradıcılarından biri Cirolamo Freskobaldi (Girolamo Frescobaldi; 1583-1643) anadan olub.

**9 sentyabr 1828** – Rus yazıçısı və mütəfəkkiri Lev Nikolayeviç Tolstoy (1828 – 20.11.1910) Tula quberniyasının Yasnaya Polyana kəndində doğulub. Əsərləri: “Ailə xoşbəxtliyi”, “Hərb və sülh”, “Anna Karenina”, “Dirilmə” (romanlar), “Kreyser sonatası”, “Kazaklar”, “Hacı Murad” (povestlər), “Canlı meyit” (pyes) və s.

**10 sentyabr 1912** – Danimarka karikaturaçısı Herluf Bidstrup (Herluf Bidstrup; 1912-1988) anadan olub.

**10 sentyabr 1914** – Amerika kinorejissoru Robert Uayz (Robert Wise; 1914-2005) anadan olub. İki dəfə “Oskar” laureatıdır: “Vestsayd əhvalatı”, “Musiqi səsləri”.

**10 sentyabr 1934** – Türk mənşəli (Krım tatarı) Ukrayna bəstəkarı Alemdar Karamanov (1934-2007) anadan olub. Əsərləri: “Ay dənizi” simfoniyası, “Məhəbbətdən güclü” baleti və s.

**11 sentyabr 1862** – Amerika yazıçısı, novella janrının ustası O` Henri (William Sydney Porter; 1862-1910) anadan olub. Əsərləri: “Dörd milyon”, “Yanan lampa”, “Taleyin yolları” hekayələr toplusu, “Krallar və kələm” romanı və s.

**11 sentyabr 1865** – Latviya şairi və dramaturqu Yan Raynis (əsl soyadı Pliekşans; 1865-1929) anadan olub. Kitabları: “Tufan səpini”, “Son və başlanğıc”, “Evə”.

**11 sentyabr 1894** – Ukrayna kinorejissoru, SSRİ Xalq artisti Aleksandr Dovjenko (1894-1956) anadan olub. Filmləri: “Arsenal”, “Torpaq”, “Aeroqrad” və s.

**11 sentyabr 1885** – İngilis yazıçısı David Herbert Lourens (David Herbert Lawrence; 1885-1930) anadan olub. Psixoloji romanları ilə məşhurlaşıb: “Göy qurşağı”, “Vurğun qadınlar”, “İtkin qız”, “Ledi Çatterleyin məşuqu”.

**11 sentyabr 1903** – Alman filosofu və musiqişünası Teodor Adorno (Theodor Ludwig Wiesengrund-Adorno; 1903-1969) anadan olub.

**12 sentyabr 1921** – Polyak satirik yazıçısı Stanislav Lem (Stanislaw Lem; 1921-2006) anadan olub. Əsərləri: “Solyaris”, “Səmanın səsi”, “Yerdə sülh”, “Aldebarandan müdaxilə” və s.

**Hazırladı: V.Orxan**

# Azərbaycan xalçaları Berlində sərgilənir





əvvəli səh. 1-də

Azərbaycanın Almaniyadakı səfiri Nəsimi Ağayev çıxış edərək ölkəmizdə xalçaçılığın qədim tarixə malik olduğunu, bu sənətin inkişafına dövlət tərəfindən xüsusi əhəmiyyət verildiyini diqqətə çatdırıb.

"Azərxalça" ASC-nin İdarə heyətinin sədri Əməkdar incəsənət xadimi Emin Məmmədov qurumun fəaliyyətindən söz açıb. O, Azərbaycan xalq-tətbiqi sənəti və onun mühüm qolu olan xalçaçılığın milli mədəniyyət tariximizdə özünəməxsus yer tutduğunu vurğulayıb, sərgidə nümayiş olunan Qarabağ, Qazax, Naxçıvan, Şirvan xalçaçılıq məktəblərinə aid olan nümunələrdən bəhs edib.

Tədbirdə Almaniyanın Azərbaycandakı səfiri Ralf Horleman da çıxış edib. O, fəaliyyəti dövründə Azərbaycanda xalçaçılıq sənəti ilə bağlı əldə etdiyi təəssüratı tədbir iştirakçıları ilə bölüşüb.

Sərgi zamanı qonaqlar üçün Qarabağ xalçasının toxunma prosesi də nümayiş olunub, onlara hanada öz ilmələrini atmaq imkanı yaradılıb. Qarabağ xalçasının toxunma prosesində iştirak edən hər kəsə "Azərxalça" ASC-nin xüsusi sertifikatı da təqdim olunub.

Tədbir çərçivəsində iştirakçılara Heydər Əliyev Fondu tərəfindən nəfis tərtibatda və alman dilində hazırlanmış Azərbaycanda xalçaçılıq sənəti haqqında nəşrlər paylanılıb, Azərbaycan xalçaçılıq sənətindən, ölkəmizin tanınmış xalça toxucularından bəhs edən film nümayiş olunub.

Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzində təşkil olunan sərgi sentyabrın sonunadək ziyarət üçün açıq olacaq.

# Rumıniyada türk xalq rəqsləri, mahnıları və milli geyimləri üzrə festival

## Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu dəstək verib...

Rumıniyanın Konstanta şəhərində Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun dəstəyi ilə Türk-tatar xalq rəqsləri, mahnıları və milli geyimləri üzrə 28-ci Beynəlxalq festival təşkil olunub.



Fonddan bildirilib ki, festivala Azərbaycanı, Türkiyəni, eləcə də Rumıniya, Makedoniya, Gürcüstan, Slovakiya, Bolqarıstan və digər Avropa ölkələrində yaşayan türk xalqlarını təmsil edən rəqs və mahnı qrupları qatılıblar.

Festival heyətlərin rəngarəng milli geyimlərdə və ölkələrin bayraqlarıyla Konstanta şəhərinin mərkəzi küçələrində yürüşü ilə başlayıb.

İki gün ərzində musiqi kollektivləri regionun müxtəlif bölgələrində konsert proqramları ilə çıxış ediblər. Azərbaycanı festivalda 2018-ci il Beynəlxalq Muğam Müsabiqəsinin qalibi Nisbət Sədrayeva (xanəndə), Səxavət Məmmədov (tar) və Elvin Novruzovdan (kamança) ibarət muğam triosu uğurla təmsil edib.

Türkiyədən "Bursa Vətən Xalq Oyunları Gənclik və İdman Klubu Dərnəyi" nümayəndələrinin zeybək rəqsi də maraqla qarşılanıb.

Qeyd edək ki, son illərdə Rumıniyanın rəsmiləri və tatar icmasının nümayəndələri ilə keçirilən görüşlərdə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun iştirakı ilə birgə fəaliyyətin istiqamətləri ətrafında müzakirələr aparılıb.

Festivalda Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun layihə rəhbəri Leyla Həsənova da iştirak edib. O, festivalın əsas təşkilatçısı olan Rumıniyanın Türk-Müsəlman Tatarları Demokratik Birliyinin sədri Celil Eserghep ilə görüşüb. Fond tərəfindən müxtəlif ölkələrdə məskunlaşmış türk kökənli xalqların mədəni irsinin qorunması istiqamətində aparılan fəaliyyətindən bəhs edilib.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu festivalın işində fəal iştirak etdiyi üçün diplomla təltif olunub.

# Misir artefaktlarını geri istəyir

## UNESCO-ya müraciət ünvanlanıb...

Tanınmış Misir arxeoloqu Zaid Havass Britaniya muzeylərində olan artefaktların qaytarılması üçün UNESCO-ya müraciət ünvanlayıb. Arxeoloq müxtəlif vaxtlarda Misirdən təxminən 2 min artefaktın oğurlandığını bildirib və hazırda Britaniya Muzeyində olan qədim abidələrin, xüsusən məşhur "Rozetta daşı" yazılı kitabəsinin qaytarılmasını tələb edib.

Britaniya Muzeyi Qəyyumlar Şurasının sədri Corc Osborn bildirib ki, qızıl zinət əşyaları və qiymətli daşlar da daxil olmaqla, oğurlanmış artefaktların qaytarılması üzrə səylər davam edir.

Misirli arxeoloq həm UNESCO-nu, həm də Misirin Turizm və Qədim Əsərlər Nazirliyini qiymətli eksponatların Britaniya Muzeyində saxlanılmasının riskləri barədə xəbərdar edib və onların qanuni sahiblərinə qaytarılması üçün atılacaq addımları müzakirə etmək məqsədilə beynəlxalq konfrans təşkil etməyə çağırıb. Bildirib ki, Avropa ölkələri keçmiş müstəmləkələrindən apardıqları bütün artefaktları geri qaytarmalı və bunun üçün xüsusi kampaniya təşkil edilməlidir.



Arxeoloq 2022-ci ildə Britaniya Muzeyindəki "Rozetta daşı" və Parisdəki Luvr Muzeyindəki "Dendera bürcü"nün Misirə qaytarılmasını tələb edən petisiya da başladıb.




## Olaylar, faktlar (8–11 sentyabr)

### 643 il əvvəl...

**8 sentyabr 1380-ci ildə** Don çayının sahilindəki Kulikovo çölündə rus knyazlıqları ilə Qızıl Ordanın qoşunları arasında döyüş olub. Vladimir və Moskva knyazı Dmitri İvanoviçin ordusu Qızıl Orda xanı Mamayın başçılıq etdiyi qoşunları məğlub edib. Bundan sonra Qızıl Ordanın rus knyazlıqları üzərində hökmranlığı zəifləsə də, daha yüz il (1480-ci ilədək) sürdü.

### 405 il əvvəl...

**10 sentyabr 1618-ci ildə** Səfəvi və Osmanlı dövlətləri arasında növbəti müharibənin (1616-1618) nəticələrinə dair Mərənd sülh sazişi imzalanıb. Səfəvi dövləti XVI əsrin sonunda Osmanlı ilə müharibədə (1578-1590) itirdiyi torpaqların böyük hissəsini geri aldı. Bir müddət sonra (1625) tərəflər arasında yeni müharibə başlandı.

### 228 il əvvəl...



**11 sentyabr 1795-ci ildə** Tiflis yaxınlığında gürcü çarı II İraklinin qoşunları ilə İran şahı Ağa Məhəmməd Qacarın qoşunları arasında döyüş olub. Qacarın qoşunları gürcüləri məğlub edərək Tiflisi ələ keçirib. Bir il sonra II İrakli Rusiya imperiyası ilə müqavilə bağladı və Kartli-Kaxetiya çarlığı Rusiyanın himayəsinə keçdi.

### 81 il əvvəl...

**9 sentyabr 1942-ci ildə** SSRİ Dövlət Müdafiə Komitəsinin (sədr İosif Stalin) qərarı ilə Azərbaycan SSR ərazisində hərbi vəziyyət elan edilib. Bu vaxt Almaniya qoşunları Qafqaz dağlarında idi və Bakı üzərinə hava reydləri həyata keçirilirdi.

### 75 il əvvəl...

**9 sentyabr 1948-ci ildə** Koreya Xalq Demokratik Respublikası yaranıb. II Dünya müharibəsindən sonra Yaponiyanın işğalından azad edilən Koreya yarımadası SSRİ və ABŞ-nin (38-ci paralel üzrə) nəzarətinə keçmişdi.

### 71 il əvvəl...

**11 sentyabr 1952-ci ildə** Qərbi Almaniya (AFR) Kansleri Konrad Adenauer və İsrailin Baş naziri Ben Qurion barışıq sazişi imzalayıblar. Sazişə əsasən, Almaniya faşist idarəçiliyi dövründə yəhudilərə qarşı həyata keçirilmiş soyqırımına (Holokost) görə İsrail dövlətinə 300 milyon dollara yaxın təzminat ödəməli idi.

### 50 il əvvəl...

**11 sentyabr 1973-cü ildə** Çilidə hərbi çevriliş baş verib. General Auqusto Pinoçetin başçılıq etdiyi hərbi xunta prezident Salvador Alyendeni qətlə yetirib. Pinoçet rejimi 1989-cu ilədək sürdü. Həmin ildə o, azad seçkilərə şərait yaradaraq hakimiyyətdən getdi.

### 32 il əvvəl...

**8 sentyabr 1991-ci ildə** Azərbaycanda ilk prezident seçkiləri keçirilib. Əksər siyasi qüvvələrin boykot etdiyi və alternativ namizədin olmadığı seçkilərdə Azərbaycan KP MK-nın 1-ci katibi Ayaz Mütəllibov prezident seçilib.

### 25 il əvvəl...

**8 sentyabr 1998-ci ildə** Bakıda tarixi İpək Yolunun bərpası ilə bağlı Avropa Birliyinin TRACECA (Avropa-Asiya nəqliyyat dəhlizi) layihəsi üzrə beynəlxalq konfrans keçirilib. 32 ölkənin (o cümlədən 9 ölkə başçısı), 12 beynəlxalq təşkilatın iştirak etdiyi konfransda Avropa-Qafqaz-Asiya beynəlxalq nəqliyyat dəhlizinin yaradılması haqqında müqavilə imzalanıb.

### 22 il əvvəl...



**11 sentyabr 2001-ci ildə** ABŞ-də dəhşətli terror aktları baş verib. Terrorçu kamikadzelər tərəfindən qaçırılmış üç sərnişin təyyarəsindən ikisi Nyu-Yorkda Dünya Ticarət Təşkilatının qoşa qüllələrinə, biri isə Vaşinqtonda Pentaqonun (ABŞ Müdafiə Nazirliyi) binasına çırpılıb. 3 minə yaxın insanın həyatına son qoyan terrora görə məsuliyyət Üsəma bin Ladenin "Əl-Qayda" təşkilatının üzərinə qoyulub.

**Hazırladı: V.Orxan**

# Bolqarıstanda festivalda ölkəmizlə bağlı təqdimat

Sentyabrın ilk günlərində Bolqarıstanın qədim Küstendil şəhərində ənənəvi olaraq "Struma səhnələri" beynəlxalq festivalı keçirilir. Struma (Karasu) çayı yaxınlığında yerləşən Küstendil Osmanlı-türk tarixi izlərinin, müxtəlif tikililərin də olduğu şəhərdir.

Küstendil meriyası, "Presto" musiqi evi və "Bratstvo 1869" icma mərkəzinin təşkilatçılığı ilə keçirilən builki festival çərçivəsində Bakı Slavyan Universitetinin Müqəddəs Kliment Oxridski adına Sofiya Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan dili və mədəniyyəti mərkəzi tərəfindən "Azərbaycan – yaxın və kəşf edilməmiş" adlı fotosərgi açılıb. Festivalda həmçinin Yunanıstan, Avstriya, İsveçrə, Çin, Mərakeş və digər ölkələrin nümayəndələri iştirak edirlər.




Açılış mərasimində çıxış edən festivalın direktoru Nadejda Dimitrova bu cür mədəni tədbirlərin region üçün vacibliyini vurğulayıb.

Azərbaycan dili və mədəniyyəti mərkəzinin direktoru Sofiya Şıqayeva-Mitreska çıxış edərək 2023-cü ildə müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyinin, Sofiya Universitetinin nəzdindəki mərkəzin isə 10 illiyinin qeyd edildiyini bildirib. Sərginin bu yubileylərə həsr edildiyi diqqətə çatdırılıb. Direktor bu şəkillərin 2013-cü ildən Azərbaycanda yaşayan peşəkar bolqar fotoqraf və yazıçı Aureliya Nəsirova tərəfindən çəkildiyini deyib.

Açılış mərasimində Sofiya Universitetinin türkologiya ixtisası üzrə tələbəsi Melisa Ramadan milli geyimdə Azərbaycan rəqsini ifa edib.

"Struma səhnələri" festivalı sentyabrın 9-dək davam edəcək. Azərbaycan təbiətini və mədəniyyətini Küstendil şəhəri sakinlərinə və qonaqlarına təqdim edən sərgi "Bratstvo 1869" icma mərkəzində festivaldan sonra da nümayiş olunacaq.

# Dünya Turizm Təşkilatı yol xəritəsi hazırlayıb

BMT-nin Dünya Turizm Təşkilatı (UNWTO) G20 qrupu çərçivəsində turizmi dəstəkləmək üçün idarəetmə panelini işə salır.



Təşkilatın işçi qrupu 9-10 sentyabrda Nyu-Delhidə keçiriləcək G20 ölkələri sammiti ərəfəsində ev sahibi Hindistanın Turizm Nazirliyi ilə birlikdə turizmin dəstəklənməsi üzrə yeni layihə təqdim edib.

Təşkilat hesab edir ki, BMT-nin "2030 – Davamlı İnkişaf Gündəliyi"ndə təsbit olunmuş hədəflərinə nail olunmasında turizm sektorunun inkişafının mühüm rolu var. Təqdim edilən yeni təşəbbüsə uyğun olaraq hazırlanmış yol xəritəsi beş prioritet komponenti ehtiva edir: yaşıl turizm, turizm sektorunun rəqəmsallaşması, peşəkarlığın artırılması, turizm sahəsində kiçik və orta sahibkarlığa dəstək verilməsi, turizm istiqamətlərinin idarə edilməsi.

UNWTO-nun baş katibi Zurab Pololikaşvili deyib: "G20 ölkələri dünya üzrə turizmin 70 faizdən çoxunu təmsil edir. Sektorun transformasiyasında onların liderliyi həlledicidir. G20 çərçivəsində yaradılan Turizm İşçi Qrupu konkret nəticə əldə etmək istiqamətində istinad alətidir".

# Kilosu 70 avroya...

## Fransalı turist İtaliyada çınqıl oğurlayıb

İtaliyanın Sardiniya adasında istirahətdən ölkəsinə qayıdan fransalı turisti sərhəddə gömrük işçiləri qeyri-adi yükünə görə saxlayıblar.




Məlum olub ki, fransalı qonaq istirahət zamanı Porto-Konte təbiət parkı ərazisindəki çimərlikdən 41 kiloqrama yaxın xırda daş və çınqıl toplayıb və onu mühafizə olunan çimərlik ərazisindən gizli çıxarıb.

Yerli qanunvericiliyə əsasən, Sardiniya çimərliklərindən çınqıl, qum və balıqqulağı toplamaq qadağandır.

Fransalı turistin Sardiniyada istirahəti də ona baha başa gəlib. O, ölkədən qanunsuz çıxarmaq istədiyi 41 kilo daş və çınqıla görə 3 min avro cərimə olunub.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5053. **Sifariş:** 2326
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641